RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 84 (8400) CÜMƏ, 1 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin yürütdüyü siyasət beynəlxalq miqyasda təqdir olunur

## Azərbaycan Prezidenti pandemiyaya qarşı mübarizəyə həm də qlobal töhfə verir

Koronavirus infeksiyası hər bir dövləti ciddi sınaq qarşısında qoydu. Bəzisi bu sınaqdan layiqincə çıxmaqdadır, bəzisi isə çoxsaylı insan itkisi ilə. Son ayların təcrübəsi göstərir ki, dərhal qabaqlayıcı tədbirlər həyata keçirən, heç bir halda xəstəliyə laqeyd olmayan dövlətlərdə virusun yayılmasının qarşısı alınır və bu təhlükəli infeksiyanın daha ciddi fəsadlara yol açmasına imkan verilmir.

### Virusa qarşı effektiv tədbirlər görən ölkə

Bu gün koronavirusa qarşı ən effektiv mübarizə aparan ölkələrdən söz açdıqda Azərbaycanın adı birincilər cərgəsində gəlir. Bu da təsadüfi deyil. Çünki fevralın sonlarında respublikamızda virusa ilk yoluxma halı qeydə alınandan operativ şəkildə qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə başlanıldı. Virusun qonşu ölkələrdən gəlməsi nəzərə alınaraq yük avtomobillərinin hərəkəti istisna olaraq bütün sərhədlərimiz vaxtında bağlanıldı və yalnız Azərbaycan vətəndaşlarının vətənə qayıtmalarına imkan yaradıldı. O cümlədən bütün istiqamətlərə təyyarə uçuşları dayandırıldı.

Həmçinin ölkə ərazisində mart ayının 4-dən etibarən sosial izolyasiya tədbirlərinə start verildi. Sonrakı günlərdə izolyasiya tədbirləri genişləndirildi və ölkədə karantin rejimi tətbiq olundu. Bunun nəticəsidir ki, Azərbaycanda virusa yoluxmada ağır fəsadlar yaranmadı.

Reallıq göstərir ki, bir sıra Avropa ölkələrində virusun daha çox yayılmasına və insan ölümünə gətirib çıxarmasının ilk səbəbi izolyasiyanın zamanında tətbiq edilməməsi, o cümlədən insanların məhdudlaşdırıcı tədbirlərə məhəl qoymamalarıdır. ABŞ-da virusa yoluxanların sayı 1 milyon nəfərdən, vəfat edənlərin sayı isə 61 min nəfərdən çoxdur. İtaliya və İspaniyada virusa yoluxanların sayı çoxdan 200 min nəfəri, Böyük Britaniya və Fransada 165 min nəfəri ötüb. Vəfat edənlərin sayı isə hər ikisində 24 min nəfərdən artıqdır. Avropanın əhalisinin sayına görə nisbətən kiçik dövlətlərindən Belçikada koronavirusdan vəfat edənlərin sayı 7 min 500, İsveçdə 2 min 400, İsveçrədə 1700 nəfərdən artıqdır.

Göründüyü kimi, koronavirus infeksiyası Avropanın xüsusən inkişaf etmiş dövlətlərində daha ciddi fəsadlara yol açıb. Azərbaycanda isə indiyədək 1804 nəfərdə bu xəstəliyə yoluxma aşkar edilib. Onlardan böyük əksəriyyəti müalicə olunaraq sağlam həyata qayıdıb.

Ardı 5-ci səh.

# “Azərbaycan xalqı Sizə dərin sevgi bəsləyir”

Ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması ilə bağlı gördüyü işlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Sumqayıt Şəhər Ağsaqqallar Şurasının sədri **Müzəffər Gülümov** yazır: “Möhtərəm cənab Prezident, Ulu Öndərimiz Heydər Əliyevin “Kiçik bir Azərbaycan” adlandırdığı gözəl Sumqayıt şəhərinin ağsaqqalları adından Sizi salamlayıram. Ulu Öndərimiz Sumqayıta, onun zəhmətkeş insanlarına və şəhərimizin inkişafına çox böyük diqqət yetirirdi. Sumqayıtın bir şəhər kimi formalaşması və inkişafı böyük tarixi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Biz sumqayıtlılar çox sevinirik ki, Ulu Öndərimizin şəhərimizə olan bu isti münasibəti Sizin tərəfinizdən uğurla davam etdirilir. Birbaşa diqqət və qayğınız sayəsində, xüsusən son illərdə şəhərimizdə yaradılan çoxsaylı sosial-ictimai və sənaye müəssisələri Sumqayıtı daha da inkişaf etdirmiş və müasir, abad, işıqlı bir şəhərə çevirmişdir. Cənab Prezident, koronavirus pandemiyası nəticəsində bu gün dünya iqtisadi çətinlik və böhran girdabındadır. Mövcud çətinliklərə baxmayaraq, respublikamızda nəzərdə tutulan sosial layihələr dayandırılmır, qrafikə uyğun olaraq öz həllini tapır. Heç bir sosial proqram ixtisar olunmayan Azərbaycanda dövlət başçısının siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Sumqayıt şəhərinə çəkilən yeni magistral qaz xətti də Sizin sumqayıtlılara yeni töhfəniz oldu. Bu alternativ qaz kəməri ilk növbədə sakinlərimizi və eləcə də sənaye müəssisələrini dayanıqlı qazla təmin edəcək. Hörmətli Prezidentimiz, sərəncamlarınız və verdiyiniz xüsusi tapşırıqlar əsasında vaxtında qabaqlayıcı tədbirlərin görülməsi sayəsində bu qorxulu və dəhşətli koronavirus pandemiyasının yayılma sürətinin xeyli aşağı salınması mümkün oldu.

Ardı 2-ci səh.

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Zakir Qaralovla telefonla danışıb.

Telefon danışığı zamanı dövlət başçısı Baş prokuror vəzifəsində səlahiyyət müddəti başa çatmış Zakir Qaralovun bu vəzifədə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik prinsiplərinə sədaqətlə xidmət etdiyini vurğulayıb, özünün prezidentlik fəaliyyəti dövründə də prokurorluq orqanlarının işinin təkmilləşdirilməsi istiqamətində onun gördüyü işləri qeyd edib.

Fəaliyyətinə verilən qiymətə görə dərindən minnətdarlıq edən Zakir Qaralov Azərbaycan Prezidentinin həyata keçirdiyi uğurlu siyasəti daim dəstəkləyəcəyini bildirib.

## M.H.Quliyevin Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Mahir Hacı oğlu Quliyev Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 aprel 2020-ci il*

# İlə yaxşı başlamışıq

## Pandemiya ərəfəsində əsas makroiqtisadi göstəricilərimiz müsbət olmuşdur

Arzuedilməz “qəfil qonaq” olan koronavirusun “hücum”a hazırlaşdığı ilin ilk rübü arxada qalmışdır. Karantinin sərt şərtlərindən sonra tədricən ayağa qalxa biləcəyimizə ümid etdiyimiz ikinci rübün bir ayını da başa vururuq, baxmayaraq ki, COVID-19-un dünya düzəninə vurduğu zərbənin fəsadlarının aradan qaldırılması üçün nəinki bir rübün iki ayının, hətta bir neçə ilin kifayət etməyəcəyini anlayırıq.

Bununla belə, yenə də bədbinliyə qatılmırıq, gümanımızı üzmürük, depressiyaya düşmürük, yəni nikbinik. Həmin nikbinliyi bizə verən isə Azərbaycanın iqtisadi cəhətdən dayanıqlı, sosial cəhətdən güvənli, maddi cəhətdən imkanlı ölkə olmasıdır, hətta o dərəcədə ki, pandemiyanın da bu cəhətlərə ciddi təsir edə bilmədiyinin şahidi oluruq. Bunu ilin demək olar bir ayı koronavirusun tüğyan etdiyi şəraitdə keçən ilk rübünün makroiqtisadi göstəriciləri də təsdiqləyir.

Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, cari ilin yanvar-mart aylarında ölkə üzrə 18,3 milyard manatlıq ÜDM istehsal olunmuşdur ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 1,1 faiz çoxdur. Hesabat dövründə qeyri-neft və qaz sektorunda əlavə dəyər 3,5 faiz artmış, neft-qaz sektorunda 2,1 faiz azalmışdır.

İlk rübdə istehsal edilmiş ÜDM-in 40,2 faizi sənaye, 10,7 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 6,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,9 faizi tikinti, 3,2 faizi kənd və meşə təsərrüfatları, balıqçılıq, 2,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2 faizi informasiya və rabitə, 19,7 faizi isə digər sahələrin payına düşmüşdür. Bu aylarda məhsula və idxala xalis vergilər ÜDM-in 10,2 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən əlavə dəyər isə 1840,2 manata bərabər olmuşdur.

Ardı 5-ci səh.

# Qlobal pandemiyaya qarşı uğuru sosial məsuliyyətsizliklə əldən verməyək

## Yer üzündən bu bəla tamamilə silinməyincə təhlükənin sovuşmasına sevinmək yersizdir

Görünməmiş bir sürətlə dünyanı bürüyən koronavirus, COVID-19 bəlası hələ də tüğyan etməkdə davam edir. Güclü ölkələri, super gücləri bir həmlədə diz çökdürən bu virus insanlara yeni qaydalar, yeni yaşam şərtləri diktə etdi. İndi insanoğlunun həyatda yeganə qayəsi bu bəladan canını qurtarıb yaşamaq və övladlarını qorumaqdır. Amma necə?

Təbii ki, virusa yoluxmamağın, ondan qorunmağın yolları da bəllidir. Yetər ki, buna əməl edilsin, qoyulan qaydalara riayət olunsun. Zamanında bu taclı bəlanı ciddiyə almayıb lazımi tədbir görməyən bir çox ölkələrin təəssüf ki, necə acı aqibətlə üzləşməsi göz qabağındadır. ABŞ, İspaniya, İtaliya, Fransa və Almaniya kimi böyük dövlətlər çıxılmaz vəziyyətə düşüblər. Dünyanın nəhəng dövlətlərinin koronavirus qarşısında aciz durumu göstərir ki, getdikcə pandemiyanın miqyası daha da böyüyür.

Sərhəd qonşularımız İran və Rusiyada da vəziyyət ürəkaçan deyil və virusa yoluxmanın, bu bəlanın aldığı canların sayı getdikcə artır.

Ardı 5-ci səh.



# Məcburi köçkünlər üçün yeni qəsəbələr salınır

## Bu, Azərbaycanda hətta pandemiya dövründə sosial layihələrin davamlı olduğunun daha bir göstəricisidir

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev bu il aprelin 24-də Sumqayıt şəhərindəki yataqxanalarda müvəqqəti məskunlaşan 3042 məcburi köçkün ailəsi üçün Abşeron rayonu ərazisində yaşayış binalarından ibarət məhəllədə aparılan tikinti işləri ilə tanış olub.

Hər il məcburi köçkünlərin yeni evlərlə təmin olunması üçün binaların tikintisinə böyük vəsait ayrılır. Məqsəd hər bir məcburi köçkünün yaxşı şəraiti olan mənzildə, yaxud evdə yaşamasıdır. Bu məsələyə Prezident şəxsən özü nəzarət edir və bu tip qəsəbələrin, məhəllələrin əksəriyyətinin açılışında iştirak edir.

Hazırda Abşeron rayonunun ərazisində iki belə qəsəbə salınır. Onların birində 1890, digərində 1152 ailə məskunlaşacaq.

Ardı 5-ci səh.

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

*Əvvəli 1-ci səh.*

Dünyada koronavirusla mübarizənin çox yüksək səviyyədə və peşəkarlıqla təşkil olunduğu ölkələrdən biri də məhz Azərbaycandır. Ümumdünya Səhiyyə Təşkilatı ölkəmizdə pandemiyanın qarşısının alınması üçün görülən tədbirləri yüksək qiymətləndirir. Sizin tapşırığınıza əsasən şəhərimizdə ahıllara, 65 yaşdan yuxarı tənha insanlara, aztəminatlı ailələrə gündəlik qayğı və yardım göstərilir. Cənab Prezident, həmişə olduğu kimi, bu gün də Sizin və Mehriban xanımın xalqa hansı məhəbbətlə bağlı olduğunuzu görürük. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə görülən işlər də xüsusi alqışalayiqdir. Siz həmişə əsl rəhbər kimi hər birimizə dayaq, dəstək olmusunuz. Sizə Sumqayıtın çoxsaylı ağsaqqallarının, şəhər əhalisinin dərin hörmət və ehtiramını, şəhərimizin inkişafına, çiçəklənməsinə göstərdiyiniz diqqətə və qayğıya görə minnətdarlığını, təşəkkürünü çatdırıram. Xalqımızın rifahı və xoşbəxt gələcəyi naminə Sizə, hörmətli Mehriban xanıma, ailənizə möhkəm cansağlığı, daha böyük uğurlar arzu edirik. Uca Tanrı Sizi Qorusun!"

Masallı rayonu Dəmirçi kənd ümumi orta məktəbinin 8-ci sinif şagirdi **Nihat Cavadov:** "Möhtərəm cənab Prezident, dünyada yayılan nadir yoluxucu xəstəliklərdən biri də məhz son günlərdə bütün planeti qorxuya salan koronavirus pandemiyasıdır. Ölkəmizdə koronavirus xəstəliyinin geniş yayılmasının qarşısının alınması üçün Sizin tərəfinizdən görülən qabaqlayıcı tədbirlər xalqımızı böyük bir təhlükədən artıq xilas etməkdədir. Bu, bütün Azərbaycan xalqını çox sevindirir. Doğrudur, xalqımız əsrlər boyu ağır günlər keçirib, lakin Ulu Öndər Heydər Əliyevin və Sizin sayənizdə gözəl günlərə qədəm qoyub. Siz dövlətimiz üzərində parlayan günəşsiniz. Allah Sizi qorusun! Pandemiya dövründə biz məktəblilər evdə qalmağımıza baxmayaraq, təhsildən geri qalmır, bir çox vasitələrdə dərslərimizi yüksək səviyyədə davam etdiririk. Evdə qaldığımız bu müvəqqəti günlərdə Sizin qəbul etdiyiniz qərarlarla biz gələcəyə daha uğurla və inamla addımlayırıq. Bu məktubu yazmaqda məqsədim Sizin Azərbaycan xalqına göstərdiyiniz diqqət və qayğıya, xüsusilə də biz şagirdləri düşünərək, təhsildə gördüyünüz tədbirlərə görə təşəkkürümü bildirməkdir. Böyük inamla söyləyirəm ki, bütün Azərbaycan xalqı Sizi dərin sevgi bəsləyir".

Bakının Binəqədi rayonundan 7-ci sinif şagirdi **Nəzrin Həsənli:** "Hörmətli cənab Prezident, hazırda koronavirus pandemiyasının geniş vüsət aldığı bir dövrdə yaşayırıq. Buna baxmayaraq, Azərbaycanda qabaqlayıcı tədbirlərin görülməsi itkilərimizin digər ölkələrlə müqayisədə daha az olmasına gətirib çıxardı. Məhz Sizin göstərdiyiniz səylər nəticəsində bu virusun qarşısı tez bir zamanda alındı. "Evdə qal!" çağırışınız, əhalinin daha sıx toplaşdığı məkanların bağlanması, ölkəmizdə elan olunmuş xüsusi karantin rejimi bunun sübutudur. Cənab Prezident, atdığınız məqsədyönlü addımlar bir daha sübut edir ki, Siz və Mehriban xanım Əliyeva daim xalqın yanındasınız. Xalqımızın evdə qaldığı müddətdə insanlara göstərdiyiniz maddi və mənəvi dəstəyə, onların rifahının yaxşılaşdırılması üçün dövlət büdcəsindən ayırdığınız vəsaitə görə çox sağ olun. Azərbaycan Sizinlə gözəldir, cənab Prezident! Hörmətli cənab Prezident, biz Sizinlə fəxr edirik. Biz birlikdə güclüyük!"

Laçın rayonundan məcburi köçkün **Əli Abbasov:** "Cənab Prezident, dünyanı bürümüş koronavirus pandemiyasına qarşı həyata keçirdiyiniz qabaqlayıcı tədbirlərə, planetimizin inkişaf etmiş, aparıcı dövlətləri ilə müqayisədə Azərbaycanı bu bəladan minimum itki ilə xilas etdiyinizə, bu ağır günlərdə gecə-gündüz yorulmadan çalışdığınıza, hər bir vətəndaşa maddi və mənəvi dəstək göstərdiyinizə, əsl valideyn qayğısına görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya özümün və ailəmin adından dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm. Ulu Tanrı Sizi və Sizin rəhbərliyinizlə xalqımızı qorusun!"

Zaqatala rayonundan ağsaqqal **İsa Əhmədov:** "Möhtərəm cənab Prezident, son vaxtlar dünyada geniş vüsət almış koronavirus pandemiyasının Azərbaycanda yayılmasının qarşısının alınması, ölkəmizin, xalqımızın pandemiya ilə mübarizədən qalib çıxması üçün tərəfinizdən görülən qabaqlayıcı tədbirlər biz ağsaqqallar tərəfindən də rəğbətlə qarşılanır. Siz ilk günlərdən bütün qüvvələri səfərbər edərək mümkün tədbirləri həyata keçirdiniz, hər zaman olduğu kimi, bu çətin anda da vətəndaşların yanında, onların xidmətində oldunuz. Bu çətin günlərdə dövlətimiz, xalqımız üçün gördüyünüz işlər, göstərdiyiniz fədakarlıq, yorulmaz fəaliyyətiniz bizi daha da ruhlandırır. Bu gün Azərbaycanda koronavirusa qarşı aparılan mübarizə tədbirləri, həyata keçirilən siyasət bir sıra ölkələr üçün nümunədir. Bəşəriyyəti bürüyən bu bəladan qorunmaq üçün xalqa etdiyiniz müraciətləriniz, qısa müddət ərzində ölkəmizdə 14 laboratoriyanın fəaliyyətə başlaması, "Yeni klinika" tibb müəssisəsinin istifadəyə verilməsi, tibbi maska istehsal edən müəssisənin açılışı, sosial paketin həyata keçirilməsi üçün böyük həcmdə maliyyə vəsaitinin ayrılması sübut etdi ki, ölkəmizdə bütün lazımi addımlar ən yüksək səviyyədə atılır. Biz ağsaqqallar da dövlətimizə, onun gücünə, gördüyünüz işlərə fərdi məsuliyyətimizlə dəstək olacaq, bəşəriyyəti bürüyən bu bəladan uğurla çıxacağıq. Azərbaycan xalqının sağlamlığının qorunmasına xidmət edən fəaliyyətinizə görə Sizə dərin təşəkkürümüzü bildirir, möhkəm cansağlığı arzu edirik".



## "Azərbaycan xalqı Sizə dərin sevgi bəsləyir"

Cəlilabad şəhərindən **Səadətxanım Cabbarova:** "Hörmətli cənab Ali Baş Komandan, Sizə 70 yaşlı ağbirçək qadın, 6 övlad anası, 11 nəvə nənəsi kimi müraciət edirəm. Külfətimin, el-obamın bu gününün, sabahının etibarlı əllərdə olması məni həm sevindirir, həm də daha çox yaşayıb-yaratmağa həvəsləndirir. Sizin gördüyünüz işlər, xalqımıza hər zaman qayğıkeş münasibət göstərib dar gündə qucaq açmağınız bir ağbirçək kimi şəxsən mənə ruh verir. Bu çətin pandemiya dövründə uzaqgörənliyiniz sayəsində bizi bəladan az itki ilə xilas etdiyinizə, xüsusilə yaşlı nəslə göstərdiyiniz qayğıya görə Sizə minnətdaram. Mən bu müqəddəs ayda oruc tuturam. Bütün Ramazan boyu Sizə və ailənizə dua edəcəyəm".

Şabran rayonunun Gəndov kəndindən 6-cı sinif şagirdi **Şəfa Umudova:** "Hörmətli cənab Prezidentimiz, karantin müddətində Sizin etdiyiniz yaxşılıqları görmüşəm, həqiqətən çox qayğıkeş bir dövlət başçısı olduğunuzu da bilirəm. Siz bu çətin günlərdə vətəndaşların yanında oldunuz, aztəminatlı ailələrə və yaşlı insanlara yardım etdiniz. Buna görə də Sizə dərin təşəkkürümü bildirirəm. Ailə üzvlərimiz və mən Sizi çox sevirik. Biz fəxr edirik ki, Azərbaycan xalqının Sizin kimi qayğıkeş Prezidenti var".

Şəmkir şəhərindən **Natiq Əliyev:** "Hörmətli cənab Prezident, Sizə və Mehriban xanım Əliyevaya səmimi təşəkkürlərimi çatdırıram. Sizlərə Allah tərəfindən ən ali, ən yüksək xüsusiyyətlər, insanlığın ən yüksək zirvəsi bəxş edilib. Siz isə bu zirvədən xalqa xidmət edir, onun qayğısına qalırsınız. Əslində, Sizin xalq üçün etdikləriniz gələcəkdə cild-cild kitablarda əks olunacaq. Böyük Yaradandan Sizə və Mehriban xanıma uzun ömür, cansağlığı arzulayıram".

Şəki rayonunun Şəki kəndindən **Bayram Zeynalov:** "Çox hörmətli cənab Prezident, mənim 79 yaşım var. Ailəliklə Sizi dəstəkləyirik. Bu çətin günlərdə Sizin xalqımıza göstərdiyiniz qayğı ölçüyəgəlməzdir. Sizin kimi görkəmli şəxsiyyətin rəhbərlik etdiyi bir ölkədə yaşamağın özü bir xoşbəxtlikdir. Sizə olan səmimi münasibətimi ifadə etmək üçün söz də tapmıram. Çünki Siz xalqımızı bu qorxulu xəstəlikdən qorudunuz. Dünyanın heç bir ölkəsində vətəndaşa belə böyük qayğı göstərilmədi. Uca Allah Sizi və ailənizi, övladlarınızı pənahında saxlasın!"

Ağstafa rayonundan **Ayşən Tağızadə:** "Əziz və hörmətli cənab Prezidentimiz, ölkəmizdə görülən işlər, əhalinin güzəranını yaxşılaşdırmaq üçün atılan addımlar üçün Sizə dərin təşəkkürümü bildirirəm. Çətin bir sınaqla üz-üzəyik. Amma Sizin uzaqgörənliyiniz, verdiyiniz qərarlar, imzaladığınız sərəncamlar sayəsində Azərbaycan xalqı bu bəladan, çox şükür ki, ziyansız ötüşməkdədir. Ölkəmizdə aztəminatlı ailələrə verilən birdəfəlik müavinətlər, yardımlar üçün Sizə təşəkkür edirəm. Sizin ölkəmizdə karantin rejimi ilə əlaqədar gördüyünüz işləri dəstəkləyirik. Siz var olduqca, Azərbaycan xalqı da yaşayacaq! Allah Sizə, ailənizə cansağlığı, uzun ömür versin! Ümid edirəm ki, hər bir çətinlikdən üzüağ çıxan Azərbaycan xalqı bu çətinlikdən də ziyansız, xətasız və bəlasız qurtulacaq. Biz Sizinlə güclüyük!"

Ağcabədi rayonunun Avşar kəndindən **İqbal Abdullayev:** "Hörmətli cənab Prezident, tarix sübut edir ki, güclü və müdrik lider hər bir xalq, hər bir dövlət üçün çox mühüm amildir. Biz bunu müstəqil Azərbaycanımızın timsalında da görmüşük və bu gün də görürük. Ulu Öndər Heydər Əliyev ölkəmizi, xalqımızı fəlakətdən necə xilas etmişdirsə, Siz də bu gün Azərbaycanı böyük bəlalardan qoruyursunuz. Son vaxtlar yaşanan hadisələr bunu bir daha sübut edir. Vaxtında atdığınız uğurlu addımlar, verdiyiniz müdrik qərarlar sayəsində ölkəmiz koronavirus pandemiyası ilə qətiyyətlə mübarizə aparır və əminik ki, bu mübarizədən qalib ayrılacaq. Cənab Ali Baş Komandan, şəhid Milli Qəhrəman Abdullayev Namiq Vahid oğlunun ailəsi Sizin gördüyünüz işlərin dəyərini çox yaxşı bilir və Sizə hər zaman güvənir".

Xaçmaz rayonunun sakini **Nuranə Hacımirzəyevanın** məktubunda deyilir: "Hörmətli cənab Prezident, Azərbaycan xalqının lideri kimi atdığınız mötəbər addımlara, ən ağır zamanlarda öz xalqınızın yanında olduğunuza görə Sizə sonsuz minnətdarlığımı bildirirəm. Dünyada böyük bir bəlaya çevrilən koronavirus pandemiyası ölkəmizdən də yan keçmədi. Belə bir vəziyyətdə Siz öz vətəndaşlarınızın yanında oldunuz. Cənab Prezident, insanların sağlamlığının qorunması məqsədilə gördüyünüz işlər, qabaqlayıcı tədbirlər bir daha sübut edir ki, Siz daim xalqımızı düşünür və hər bir vətəndaşın qayğısına qalırsınız. Sizin hər bir işiniz xalqımız tərəfindən dəstəklənir. Xalqımızın rifahı, daha yaxşı yaşaması üçün gördüyünüz bütün işlərə, yorulmaz fəaliyyətinizə, Sizin və Mehriban xanımın bu dar gündə xalqımıza verdiyiniz dəstəyə görə bir gənc olaraq Sizə təşəkkür edirəm. Allah-Təala Sizi və ailənizi qorusun!"

Qax rayonunun Ağyazı kəndinin sakini **Məhəmməd Əlləzov:** "Hörmətli cənab Prezident, son vaxtlar dünyada geniş yayılmış koronavirus pandemiyası təəssüf ki, ölkəmizdən də yan keçməyib. Virusun ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması ilə bağlı tədbirlər üçün böyük məbləğdə vəsaitin ayrılması, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi bu məsələyə necə ciddi yanaşıldığını göstərir. Bu çətin dövrdə xalqımızın sağlamlığı, sosial rifahı və müdafiəsinin tam təmin olunması istiqamətində gördüyünüz bütün işlərə görə Sizə təşəkkür edirəm. Bu istiqamətdə görülən işlərdən biri də vətəndaşların sosial işçi layihəsi çərçivəsində mənim kimi minlərlə vətəndaşa iş yerlərinin verilməsidir. Sizə bu çətin dövrdə gördüyünüz işlərdə yeni uğurlar arzulayırıq. Siz xalqımıza dəstək olduğunuz kimi, xalqımız da hər zaman Sizə dəstəkdir. Sizin də dediyiniz kimi, "Biz birlikdə güclüyük!"

İmişli rayonunun Otuziki kəndinin sakini **Gülsüm İbrahimova:** "Hörmətli cənab Prezident, bildiyimiz kimi, bütün dünyaya yayılmış koronavirus pandemiyası bizim ölkəmizdən də yan keçmədi. Lakin Sizin xüsusi diqqətiniz və nəzarətinizlə həyata keçirilən tədbirlər nəticəsində ölkəmizdə pandemiya vəziyyəti nəzarət altına alınmış, insanların COVID-19 virusuna kütləvi yoluxma hallarının qarşısı alınmışdır. Bir fermer olaraq pandemiyanın kənd təsərrüfatına təsirinin minimuma endirilməsi ilə bağlı dövlət tərəfindən görülən tədbirlərin təqdirəlayiq olduğunu xüsusi vurğulamaq istəyirəm. Bu baxımdan kənd təsərrüfatı məhsullarının və xammalının istehsalı, idxalı, tədarükü, saxlanması, daşınması ilə bağlı sərbəst fəaliyyətimizi dəstəklədiyiniz və ölkəmizin mənafeyini daim əsas tutduğunuz üçün Sizə minnətdarıq".

Bərdə rayonunun Hacılar kəndinin sakinləri **Cəmaləddin Ağayev** və **Məhərrəm Bağırov** yazırlar: "Hörmətli cənab Prezident, Sizin gərgin əməyiniz nəticəsində ölkəmizin sakinlərinin güzəranı firavandır. Buna görə Sizə bütün bərdəlilərin adından təşəkkür bildiririk. Bu günlərdə yaşadığımız kənd yolu təmir edilib istifadəmizə verildi. Artıq rayon mərkəzinə daha rahat və qısa vaxt sərf etməklə çatırıq. Ulu Öndərimizin sözləri ilə desək, yol mədəniyyət, iqtisadiyyat, bir sözlə həyat deməkdir. Cənab Prezident, bizə bu yolu qismət etməklə yeni həyat bəxş etdiniz. Hacılar kəndinin bütün sakinləri göstərdiyiniz qayğıya görə Sizə təşəkkür edir".

Gəncə şəhərindən **Solmaz Qəmbərova:** "Möhtərəm cənab Prezident, Siz Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısısınız. Xalqımızın bu çətin günündə, qorxu və təlaş içində yaşadığı zamanda ona arxa duraraq xalqımıza, Vətənimizə layiqli Prezident olduğunuzu bir daha sübut etdiniz. Sizin uzaqgörənliyiniz, yüksək idarəçilik qabiliyyətiniz bizi valeh etdi. Sizin çağırışlarınıza can-la-başla əməl edirik. Ona görə ki, Siz dəfələrlə xalqımızı çətin vəziyyətlərdən çıxarmış, diqqət və qayğınızı bizdən əsirgəməmisiniz. Azərbaycan bugünkü şöhrətinə Sizin sayənizdə nail olub. Sizin vaxtında verdiyiniz qərarlar, sərəncamlar ölkəmizdə pandemiyanın yayılmasının qarşısını aldı. Buna görə həm öz adımdan, həm də ailəmin adından Sizə dərin təşəkkürümü bildirirəm. Cənab Prezident, bu arada böyük şairimiz Səməd Vurğunun bu misralarını xatırlamaq yerinə düşər: "Vətənçin yaşayan, Vətənçin ölən, Səmimi bir insan nə bəxtiyardır". Bəli, Siz xalqımızın, Vətənimizin rifahı üçün həmişə əzmlə çalışan layiqli öndərin layiqli davamçısı olduğunuzu bir daha sübut etdiniz. Biz bir daha əmin olduq ki, müdrik şəxsiyyətin ardınca addımlayırıq. Sizinlə fəxr edirik".

Göyçay rayonunun Çərəkə kəndinin sakini **Ayaz Daşdəmirov:** "Hörmətli cənab Prezident, dünyada baş verən COVID-19 pandemiyasının ölkəmizdə yayılmasının qarşının alınması üçün tərəfinizdən qabaqlayıcı tədbirlər görüldü. Azərbaycan xalqı hər məsələdə olduğu kimi, bu çətin anlarda da Sizinlə həmrəyliyik nümayiş etdirdi. Sizin qərarınızla xüsusi karantin rejiminin elan olunması xalqa yüksək qayğınızın bariz nümunəsi olmaqla yanaşı, həm də onun sağlamlığının qorunması istiqamətində atılan ən düzgün addımlardan biridir. Cənab Prezident, gördüyünüz bütün işlərə görə şəxsən öz adımdan və ailəmin adından Sizə təşəkkürümü bildirirəm. Gördüyünüz bu tədbirlər Azərbaycan xalqının qəlbində daim yaşayacaq. Sizə və ailə üzvlərinizə dünyada ən qiymətli nemət olan cansağlığı arzulayıram".

Cəlilabad rayon, Göytəpə şəhər, V.Mürsəlov adına 1 saylı tam orta məktəbin müəllimi **Şəlalə Səfərəliyeva:** "Möhtərəm Prezident, məktubumu Sizə həmişə dövlətin maraqlarını öz şəxsi maraqlarından üstün tutan ziyalı bir ailənin övladı, peşəsinə qəlbən bağlı olan müəllim, sərhədlərimizin keşiyində ayıq-sayıq dayanan hərbçi ailəsi, ən başlıcası isə vətənpərvər Azərbaycan qadını kimi ünvanlayıram. Bu gün dünyanı çənginə alan koronavirusla mübarizə aparmaq üçün atdığınız uğurlu addımlar, xalqımıza göstərdiyiniz qayğı dünyanın əksər ölkələri üçün nümunədir. "Biz birlikdə güclüyük!" şüarınız xalqın Sizə olan inamını bir daha artırmaqla yanaşı, xalqımıza verdiyiniz dəyərin, çətin günlərdə arxamızda olmağınızın bariz təzahürüdür. Möhtərəm Prezident, xalqımızın bütün sosial qruplarını düşünərək həyata keçirdiyiniz siyasəti alqışlayır, daxil olduğum bütün sosial qrupların xalqını, dövlətini sevən üzvləri adından Sizə dərin minnətdarlığımı bildirirəm. Tanrı Sizi qorusun!"

Abşeron rayonundan **Amil Eyvazlı:** "Möhtərəm cənab Prezident, mən Sizə və Birinci Vitse-prezidentimiz Mehriban xanım Əliyevaya öz adımdan və ailəmin adından dərin minnətdarlığımı bildirirəm. Bu pandemiya dövründə uğurlu siyasətiniz nəticəsində xəstəliyin qarşısı alındı və tez bir zamanda əvvəlki həyatımıza dönəcəyik. Karantin dövründə işsiz vətəndaşlara birdəfəlik ödənilən 190 manat müavinət və Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin təşkil etdiyi "Biz birlikdə güclüyük!" adlı yardım kampaniyasına görə Sizə bir daha təşəkkür edirik. Biz bu gün sayənizdə həmin yardımı aldıq. Allah Sizi qorusun! Sizə hər zaman dəstəyik".

Goranboy rayonundan şagird **Gül İbrahimova** yazır: "Sevimli prezidentimiz, Azərbaycan xalqının dəyərli rəhbəri, Siz bu çətin vaxtlarda - pandemiya dövründə bizlərin qayğısına qaldınız. Düzgün qərarlarınızla virusun əhali arasında daha çox yayılmasının qarşısını aldınız, xalqımıza əsl atalıq qayğısı göstərdiniz. Biz şagirdlər evdə qalsaq da, Sizin sayənizdə onlayn dərslərlə təhsildən qalmadıq. Buna görə Sizə dərin minnətdarlığımı bildirirəm. Nə yaxşı ki, varsınız və bizim Prezidentimizsiniz".

Yardımlı şəhərindən 89 yaşlı təqaüdçü və keçmiş dövlət qulluqçusu **Gülhüseyn Məmmədov:** "Möhtərəm cənab Prezident, ataların belə bir məsəli var: "Dost dar gündə tanınar". İcazə verin, Sizə dost kimi müraciət edim. Həqiqətən, Siz təkcə Prezident və rəhbər deyil, həm də biz insanların yaxın dostusunuz. Əziz dost, Siz prezidentlik fəaliyyətinə başladığınız ilk vaxtlardan verdiyiniz sərəncamlar və həyata keçirdiyiniz bütün tədbirlərlə bunu bariz şəkildə sübut etmisiniz. Son vaxtlar dünyada cərəyan edən virus Azərbaycandan da yan keçməmişdir. Belə vaxtda Sizin həyata keçirdiyiniz qabaqlayıcı islahatlar nəticəsində xəstəlik dünyanın başqa dövlətlərinə nisbətən çox yüngül keçir. Bu, Sizin uzaqgörənliyinizin nəticəsidir. Belə bir vaxtda xəstələrə göstərilən tibbi qayğı və müalicə ilə yanaşı, biz insanlara göstərdiyiniz hər cür yardım, pul və ərzaq verilməsi Sizin bizlərə olan qayğınızdır. Dostlarınızı darda qoymadınız. Biz Sizinləyik. Sizin dediyiniz kimi, virusa birlikdə qalib gələcəyik. Sizin rəhbərliyiniz altında Vətənimizi düşmən tapdağından da azad edəcəyik. O gün uzaq deyil. O günü Siz dostumuzla birlikdə bayram edəcəyik. Cənab Prezident, dövlətimizin daha da qüvvətlənməsi, insanlarımızın maddi rifahının yaxşılaşdırılması, iqtisadi və hərbi qüdrətimizin daha da inkişaf etdirilməsi istiqamətində işlərinizdə, prezidentlik fəaliyyətinizdə Sizə böyük uğurlar və möhkəm cansağlığı arzulayıram. Allah Sizi qorusun!"

Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndindən **Yolçu Əliyev:** "Möhtərəm cənab Prezident, dünyanı çənginə alan koronavirusun ölkəmizə zərərinin minimuma endirilməsi üçün görülən tədbirlər Sizin hər bir azərbaycanlının Prezidenti olduğunuzu sübut edir. Hər gün dünyada yüzlərlə insan bu pandemiyanın qurbanı olur. Koronavirus infeksiyasına qarşı gördüyünüz qabaqlayıcı tədbirlər xalqımızı bu bəladan xilas etməkdədir. Karantin rejimi dövründə işləməyənlərə birdəfəlik yardımların verilməsi Sizin xalqımıza göstərdiyiniz qayğının növbəti nümunəsidir. COVID-19 infeksiyası dünyanın ən qüdrətli dövlətlərində ciddi tələfatlara səbəb olaraq hökmranlıq etsə də, ölkəmizə ciddi ziyan vura bilmədi. Bu, bir daha göstərdi ki, Azərbaycanda görülən tədbirlər səmərəlidir. Həm də onu göstərdi ki, ölkəmiz əmin əllərdədir. Xalqımız da gedən proseslərdən qürurlanır. Cənab Prezident, hər bir vətəndaşın qayğısına qalaraq ölkəmizin inkişafı, xalqımızın rifahı üçün yorulmadan çalışdığınıza görə Sizə və Mehriban xanım Əliyevaya şəxsən öz adımdan və ailəmin adından dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Allah Sizləri qorusun!"

Ağdam rayonundan məcburi köçkün **Hüseynağa Hacıyev:** "Möhtərəm cənab Prezident, Sizin kimi Prezidentimizin olması ilə fəxr edirik. Qürur duyuruq ki, yaxşı günümüzdə də, çətin vaxtlarımızda da bizimləsiniz. Prezidentimizi, həkimlərimizi və əməyi keçən digər vətəndaşlarımızı Allah qorusun! Bu çətin günlərdə əhaliyə göstərdiyiniz diqqət və qayğıya, koronavirusun yayılmasının qarşısının alınması istiqamətində rəhbərliyinizlə görülən tədbirlərə görə Ağdam məcburi köçkünləri adından Sizə təşəkkür edirik. Ağdamda hər kəs karantin qaydalarına əməl edir, yaşlı insanların qayğısına qalır. Dünyanı bürüyən koronavirus bəlasından dövlətimizin, xalqımızın az itkilərlə çıxması üçün verdiyiniz bütün qərarları biz məcburi köçkünlər də dəstəkləyir, qoyulan qaydalara əməl edirik".

# N.C.Musayevin 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda estrada sənətinin inkişafında xidmətlərinə görə Niyaməddin Cabbar oğlu Musayev 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 aprel 2020-ci il*

# A.İ.Əsgərovun 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda heykəltəraşlıq sənətinin inkişafında xidmətlərinə görə Akif İzzətulla oğlu Əsgərov 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 aprel 2020-ci il*

# Aqrar sahənin texniki təminatının gücləndirilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Son dövrlərdə ölkə iqtisadiyyatının əsas prioritet sahələrindən olan aqrar sektora dövlət dəstəyinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən 45 mindən çox müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası, o cümlədən müasir tipli pambıqyığan və taxılbiçən kombaynlar, traktorlar, yedəklər və digər kənd təsərrüfatı texnikası alınaraq respublikaya gətirilmişdir. Ölkənin kənd təsərrüfatı texnikası parkı müasirləşdirilmiş, dövlət büdcəsinin vəsaiti hesabına ilkin dəyərinə 40 faiz güzəşt tətbiq edilməklə həmin maşın və mexanizmlər fermerlərə satılmışdır.

Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Taxılçılıq, pambıqçılıq və digər ənənəvi kənd təsərrüfatı sahələrinin davamlı inkişafı üçün kənd təsərrüfatı məhsulları istehsalçılarının texnikaya ehtiyacını ödəmək məqsədilə “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.13.1-ci yarımbəndində göstərilmiş 28,0 (iyirmi səkkiz) milyon manat “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 aprel 2020-ci il*

# Azərbaycanın və Səudiyyə Ərəbistanının Xarici İşlər nazirləri arasında telefon danışığı olub

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun Səudiyyə Ərəbistanının Xarici İşlər naziri Faisal bin Farhan Al Saud ilə telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin hazırkı durumu, habelə əməkdaşlığın gündəliyində duran bir sıra aktual məsələləri müzakirə ediblər.

Telefon danışığı zamanı Səudiyyə Ərəbistanı və Azərbaycan arasında bərpa olunan enerji, turizm və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunulub və ümumdünya sağlamlıq böhranı bitdikdən sonra bu istiqamətdə səylərin daha da artırılmasının əhəmiyyəti nazirlər tərəfindən vurğulanıb.

Söhbət zamanı nazirlər Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə cari il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusa qarşı mübarizəyə həsr olunmuş Zirvə görüşünün keçirilməsi ətrafında fikir mübadiləsi aparıblar.

Nazirlər həmçinin iki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstəyin əhəmiyyətini qeyd ediblər.

# Milli Məclisin Mədəniyyət komitəsinin növbəti onlayn iclası keçirilib

Aprelin 30-da Milli Məclisin Mədəniyyət komitəsinin növbəti onlayn iclası keçirilib.

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat xidmətindən məlumat verilib.

İclası açan komitə sədri Qənirə Paşayeva bildirib ki, “Nəşrlərin beynəlxalq mübadiləsinə dair” Konvensiyanın təsdiq edilməsi haqqında qanun layihəsi müzakirəyə təqdim edilir.

Qeyd edilib ki, qanun layihəsi ölkə Prezidenti İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə təqdim olunub. Konvensiya 1958-ci il 3 dekabr tarixdə Paris şəhərində UNESKO tərəfindən qəbul edilib, 1961-ci il noyabrın 23-də qüvvəyə minib və artıq 47 dövlət tərəfindən ratifikasiya edilib. Sənəd konvensiyanın iştirakçısı olan dövlətlərin hökumət orqanları və kommersiya məqsədi daşımayan təhsil, elm, texnika və mədəniyyət profilli qeyri-hökumət qurumları arasında nəşrlərin mübadiləsini ehtiva edir. Mübadilə obyektləri kimi təhsil, hüquqi, elmi-texniki, mədəniyyət və informasiya sahələri üzrə nəşrlər (kitablar, qəzetlər, dövri nəşrlər, xəritələr və planlar, reproduksiyalar, fotoşəkillər, musiqi əsərləri, brayl nəşrləri və s.) nəzərdə tutulur. Konvensiya məxfi sənədlərə, sirkulyar məktublara şamil edilmir.

İclasda komitə üzvləri Fazil Mustafa, Aqil Abbas, Ülviyyə Ağayeva, Novruzəli Aslanov, Nizami Cəfərov, Əziz Ələkbərli, Cavanşir Feyziyev, Ülviyyə Həmzəyeva, Sabir Rüstəmxanlı və Mixail Zabelin sənədin nəşrlərin dünya dövlətləri və xalqları arasında sərbəst yayılmasına şərait yaradılması baxımından çox əhəmiyyətli olduğunu vurğulayıblar.

Müzakirələrdən sonra qanun layihəsinin Milli Məclisin plenar iclasına tövsiyə edilməsi qərara alınıb.

# Azərbaycanda yeni koronavirus infeksiyasına daha 38 yoluxma faktı qeydə alınıb, 58 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında yeni koronavirus infeksiyasına daha 38 yoluxma faktı qeydə alınıb, 58 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, arterial hipertenziya xəstəliyi olan 1951-ci il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 1804 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1325 nəfər müalicə olunaraq sağalıb, 24 nəfər vəfat edib, 455 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 17 nəfərin vəziyyəti ağır, 24 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 143.079 test aparılıb.

# Ermənistan ordusu snayper tüfənglərindən və minaatanlardan istifadə etməklə atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən və müxtəlif çaplı minaatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Nəmirli, Kəngərli, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Azərbaycan Ordusunun minaatan bölmələrinin dəqiq cavab atəşi ilə düşmənin atəş nöqtələri susdurulub.

# *Prezident İlham ƏLİYEV:* “Şəffaflıq, dürüstlük, iqtisadi islahatlar ölkəmizə böyük canlanma gətirir”

“Sosial təminat bizim üçün ən başlıca vəzifədir. Buna nail olmaq üçün bizim iqtisadi imkanlarımız olmalıdır. İqtisadi inkişaf nə qədər yüksək templərlə artsa, sosial təminat da bir o qədər yaxşılaşacaq, maaşlar, pensiyalar artacaqdır. Bu gün ölkəmizdə aparılan islahatlar bu məqsədi güdür. İlk növbədə, sosial sahədə daha böyük nailiyyətlərə nail olmaq üçün biz iqtisadi sahədə işimizi düzgün prinsiplər əsasında qurmalıyıq. Şəffaflıq, dürüstlük, korrupsiya və rüşvətxorluqla mübarizə, iqtisadi islahatlar, struktur islahatları - bütün bunlar ölkəmizə böyük canlanma gətirir”.




“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin yenicə çapdan çıxmış 99-cu kitabında yer alan bu fikirləri dövlət başçısı ötən il dekabrın 24-də Bakının Nizami rayonunda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün inşa olunmuş yaşayış binasında mənzillərin və Qarabağ müharibəsi əlillərinə avtomobillərin təqdim olunması mərasimində söyləyib.

AZƏRTAC xəbər verir ki, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2019-cu ilin dekabr və bu ilin yanvar aylarını əhatə edir.

Çoxcildliyin 99-cu kitabında Prezident İlham Əliyevin Rusiya Federasiyasına səfəri, Azərbaycana gəlmiş Özbəkistan Respublikası Ali Məclisi Senatının, Türkiyə Böyük Millət Məclisinin, Qazaxıstan Respublikası Parlament Məclisinin sədrləri ilə görüşləri, eləcə də bir sıra dövlətlərin yüksəkvəzifəli nümayəndələrini qəbul etməsi haqqında informasiyalar toplanıb.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər cilddə öz əksini tapır.

Kitabda oxuculara dövlət başçısının Bakının Xəzər rayonunda 2 saylı DOST Mərkəzinin, Bakı “Ağ şəhər”də Mərkəzi Bulvar küçəsinin açılış mərasimlərində iştirakı, Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi yeni avtomobil yolunun tikintisi, “Şahdağ” Turizm Mərkəzində görülmüş işlərlə tanışlığına dair məlumatlar da təqdim edilib.

Dövlət başçısının 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə söylədiyi geniş nitqin, ilin yekunları ilə bağlı jurnalistlərə, həmçinin Rusiyanın “Rossiya-24” kanalına müsahibələrinin mətnləri də bu nəşrdə yer alıb.

Yeni kitaba Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına, Milad bayramı münasibətilə Azərbaycanın Pravoslav icmasına təbrik məktubları və digər məktubları daxil edilib.

Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri verilib.

“Azərnəşr” tərəfindən buraxılan 99-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Türk Şurasına üzv ölkələr nəqliyyat məsələlərini müzakirə edib

Azərbaycanın sədrliyi ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Şurası) üzv Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstanın, eləcə də müşahidəçi dövlət Macarıstanın nəqliyyat sahəsi üzrə məsul şəxsləri arasında videokonfrans keçirilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, videokonfransda Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə, Qırğızıstanın Nəqliyyat və Yollar Nazirliyinin Dövlət katibi Ermek Mamırkaliyev, Türkiyənin Nəqliyyat və İnfrastruktur naziri Adil Karaismayıloğlu, Özbəkistanın Nəqliyyat naziri Elyor Qəniyev, Qazaxıstanın Sənaye və İnfrastrukturun İnkişafı Nazirliyinin Nəqliyyat Komitəsinin sədri Samat Qilimov, Macarıstanın İnnovasiyalar və Texnologiya Nazirliyinin Nəqliyyat Siyasəti üzrə Dövlət naziri Laslo Mosokzı və Türk Şurasının Baş katibi Bağdad Amreyev iştirak ediblər.

Nazir R.Quluzadə Prezident İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da keçirilən videokonfransda Türk Şurasının fövqəladə Zirvə görüşünün Yekun Bəyannaməsində pandemiya dövründə ölkələrimiz arasında daşımaların davamlılığının təmin edilməsi üçün müvafiq addımların atılmasının vacibliyinin qeyd olunduğunu bildirib. Eyni zamanda yük nəqliyyat vasitələrinin sərhədlərdən keçmə prosedurlarının sadələşdirilməsi və bu sahədə yaranan problemlər barədə məlumat mübadiləsinin aparılmasının dövlət və hökumət başçıları tərəfindən zəruri hesab olunduğunu diqqətə çatdırıb.

Hazırda Türk Şurasına üzv ölkələr arasında bütün sahələrdə, o cümlədən nəqliyyat sahəsində də əlaqələrin yüksək səviyyədə qurulduğunu qeyd edən nazir həssas dönəmdə səmərəli yükdaşımalarının təşkili, çətinliklərə qarşı birgə effektiv tədbirlərin görülməsinin vacibliyini vurğulayıb.

R.Quluzadə Azərbaycan ərazisində koronavirusun yayılmasının qarşısını almaq məqsədilə sahə üzrə beynəlxalq təcrübəyə əsasən həyata keçirilən işlərdən danışıb: “Ölkənin bütün sərhədləri sərnişindaşımalara bağlanıb. Xarici ölkələrdə olan 15 mindən çox vətəndaşımız çarter təyyarə reysləri ilə ölkəyə gətirilib. Ölkədə şəhərlərarası, rayonlararası nəqliyyatın və Bakı Metropoliteninin fəaliyyəti tam dayandırılıb”.

Nazir, həmçinin deyib ki, qonşu dövlətlərlə hava və quru nəqliyyatı vasitəsilə sərnişindaşımaların dayandırılmasına baxmayaraq, beynəlxalq yükdaşımaların həyata keçirilməsinə ölkəmizdə heç bir məhdudiyyət qoyulmayıb. Ölkədə sərhəd-keçid məntəqələri 24 saatlıq iş rejimində fəaliyyət göstərir və avtomobil nəqliyyatı vasitəsilə yükdaşımaları üçün daim açıqdır.

Çıxışının davamında R.Quluzadə bildirib ki, cari ilin ilk rübündə Azərbaycan Respublikasının ərazisindən 52 min 405 ədəd, o cümlədən tranzit olaraq 20 min 819 ədəd xarici ölkələrin nəqliyyat vasitələri ikitərəfli və Beynəlxalq Nəqliyyat Forumunun çoxtərəfli icazələri ilə sərhəddə icazə almaqla beynəlxalq avtomobil daşımalarını yerinə yetirib: “Statistik məlumatların müqayisəsi göstərir ki, bu ilin ilk rübündə ötən ilin müvafiq dövrünə nisbətən Azərbaycan Respublikasının ərazisindən beynəlxalq avtomobil daşımalarını yerinə yetirən xarici ölkələrin nəqliyyat vasitələrinin sayı 24 faiz, tranzit daşımaların sayı isə 32 faiz artıb”.

Xəzər dənizi üzərindən Qazaxıstan və Türkmənistan istiqamətində yük maşınları və konteyner daşımalarının həyata keçirilməsinin davam etdirildiyini qeyd edən nazir Azərbaycan Respublikasının Dövlət bayrağı ilə üzən gəmilərdə ölkəmizin dəniz nəqliyyatı sahəsində qoşulduğu beynəlxalq konvensiyalarda və yerli qanunvericilikdə nəzərdə tutulan, vaxtı bitmiş şəhadətnamələrin və müvafiq yoxlamaların müddətinin bu il iyulun 1-dək artırıldığını söyləyib.

“Eyni zamanda respublikanın bütün beynəlxalq hava limanlarında yük aviadaşımaları üçün məhdudiyyətlər aradan qaldırılıb və hazırda təcili yük reysləri də daxil olmaqla bütün zəruri səlahiyyət və icazələr dərhal təqdim olunur. Azərbaycan Respublikasının aviasiya personalının sertifikat və icazələrinin qüvvəsinin uzadılması, həmçinin xarici dövlətlərin aviasiya administrasiyaları tərəfindən qüvvəsi uzadılmış sertifikatların müvəqqəti tanınması barədə qərar qəbul edilib”, - deyə R.Quluzadə vurğulayıb.

Nazir, həmçinin qeyd edib ki, Azərbaycan ölkənin tranzit potensialının və yük axınlarının artırılması məqsədilə hələ pandemiyadan öncəki dövrdə daşımalara və tranzit keçidhaqlarına əlavə güzəştlər tətbiq edib, digər müvafiq tədbirlər görüb. Bu güzəştlər Türk Şurasına üzv ölkələrin daşıyıcıları üçün nəqliyyat əməliyyatlarının sadələşdirilməsi və daşıma xərclərinin azaldılması baxımından əhəmiyyətlidir. Bu səbəbdən Avropadan Asiya istiqamətində hərəkət edən daşıyıcılar üçün Xəzər dənizi üzərindən keçən marşrutun üstünlüklərindən davamlı şəkildə istifadənin nəzərdən keçirilməsi mövcud yük axınının daha da artmasına öz töhfəsini vermiş olar.

Videokonfransın gedişində COVID-19 pandemiyasının yaratdığı məhdudiyyət şəraitində tərəflər arasında nəqliyyat əməliyyatlarının mövcud vəziyyəti müzakirə edilib.

Eyni zamanda pandemiya dövründə Transxəzər Dəhlizi boyunca zəruri malların - ərzaq məhsulları, dərman və tibbi ləvazimatların maneəsiz daşınmasının və təchizat zəncirinin kəsintisiz fəaliyyətinin təmin edilməsi üçün lazımi praktik tədbirlərin müzakirəsi aparılıb.

Qeyd olunan praktik tədbirlərə, yükdaşımaların asanlaşdırılması istiqamətində üzv ölkələr tərəfindən müvafiq tədbirlərin görülməsi, eyni zamanda, humanitar mallar, zəruri istehlak malları, dərman və tibbi ləvazimatları daşıyan yük maşınlarının sərhədlər/nəzarət məntəqələrindən keçidinin asanlaşdırılması üçün praktik köməklik göstərilməsi və bu sahədə yarana biləcək problemlərlə bağlı informasiya mübadiləsinin aparılması daxildir. Eyni zamanda pandemiya dövründə yarana biləcək məsələlərin çevik həlli, nəqliyyat və logistikanın effektiv əlaqələndirilməsi üçün tərəflərin nəqliyyata məsul nazirlikləri arasında operativ işçi qrupun yaradılması, Transxəzər Dəhlizi boyunca tərəflər arasında təmassız xarici ticarət və multimodal nəqliyyat sistemlərinin inkişaf etdirilməsi də praktik tədbirlər sırasında yer alır.

Həmçinin postpandemiya dövründə tərəflər arasında gələcək əməkdaşlıq üzrə müxtəlif təkliflər səsləndirilib. Türkiyə tərəfi rəqabətədavamlı və ortaq tariflərin tətbiq olunması ilə bağlı əməkdaşlığın inkişaf etdirilməsi təklifi ilə çıxış edib. Özbəkistan tərəfi isə Daşkənd-Karakalpakiya-Aktau-Bakı-Tbilisi-Qars-İstanbul multimodal nəqliyyat dəhlizinin işə salınması və birgə istifadəsini, həmçinin pandemiyanın yaratdığı məhdudiyyətləri nəzərə alaraq, Türk Şurası çərçivəsində ərzaq, tibb məhsulları və digər zəruri malların tranzit daşımalarında “yaşıl dəhlizlər”in effektivliyinin artırılması üçün əlavə tədbirlərin görülməsini təklif edib.

Videokonfransın sonunda yekun nitqi ilə çıxış edən R.Quluzadə birgə əməkdaşlıq nəticəsində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələr arasında səmərəli yükdaşımalarının daha effektiv şəkildə təşkilinin təmin ediləcəyinə, bu tədbirlərin pandemiya ilə mübarizədə öz töhfəsini verəcəyinə və ondan sonrakı dövrlərdə də ölkələrin rifahına xidmət edəcəyinə əminliyini bildirib.

Görüşün gündəliyində öz əksini tapan məsələlərlə bağlı müzakirələrin nəticəsi Türk Şurası Katibliyi tərəfindən ümumiləşdirilərək üzv dövlətlərə göndərilməsi və üzv ölkələrin müvafiq qurumları tərəfindən bununla bağlı lazımi tədbirlərin görülməsi üçün nəzərdən keçirərək öz məlumatlarını və təkliflərini təqdim etməsi razılaşdırılıb.

# “Sumqayıt” Elektrik Stansiyası dayanmaq təhlükəsindən xilas edilir

## “Azərenerji” dənizdə böyük estakada tikir

“Azərenerji” ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, Xəzər dənizində son on ildə suyun səviyyəsinin 2 metrə qədər aşağı düşməsi ölkənin dördüncü böyük elektrik stansiyası olan “Sumqayıt” Elektrik Stansiyasının işini dayandırmaq təhlükəsi ilə üzləşdirib. Belə ki, 2004-cü ildə “Sumqayıt” Elektrik Stansiyası layihələndirilərkən dəniz səviyyəsinin düşmə ehtimalının nəzərə alınmaması və nəticədə suyun səviyyəsinin kritik həddə düşməsi soyutma suyunun götürülməsində ciddi problem yaradıb.

Məhz buna görə də 2018-ci ildə “Azərenerji”də aparılan islahatlardan sonra yaranmış problemi aradan qaldırmaq üçün əməli işə keçilib. Daha doğrusu, elektrik stansiyasını dayanmaq təhlükəsindən çıxarmaq üçün Xəzər dənizinin içərisinə doğru, soyuq suyun 5 metr dərinlikdən götürülməsinə imkan verən 750 metr məsafədə estakadanın tikintisinə başlanılıb. Artıq işin 80 faizi görülüb. Tikinti prosesi növbəli iş prinsipi əsasında fasiləsiz olaraq davam etdirilir.



Qeyd edək ki, “Sumqayıt” Elektrik Stansiyasında digər sahələrdə aparılan təmir işləri ilə yanaşı, estakadada aparılan tikinti prosesi də yaxın 2 ayda yekunlaşacaq və qurğu istismara veriləcək. Bununla da MDB məkanında ilk dəfə olaraq soyutma suyunun kaskad vasitəsilə sakitləşdirici kanala, oradan isə stansiyaya ötürülməsi sistemi yaradılmaqla yanaşı, “Sumqayıt” Elektrik Stansiyası dayanmaq təhlükəsindən xilas ediləcək.

# Demokratiya və islahatlar yolu ilə

# Xalqın iradəsini əks etdirən siyasət

İnsanın ömrü kimi, dövlətlərin də tarixi əlamətdar məqamlarla zənginləşib böyüyür. İnsan yaşadığı ayları, illəri, elin sevincli, kədərli günləri ilə bağlı anları keçmişdə buraxdıqca, yaşa dolur, müdrikləşir, kamillik məqamına yetişir. Ölkələr də milli dövlətçilik tarixi ilə bağlı olan hər əlamətdar anları yaşadıqca, tarixin hüdudları daha da genişlənir. Dövlətçilik ənənələri püxtələşir, möhkəmlənir, qayım-qədim olur.



VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasını əks etdirən kadrları seyr etdikcə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həmin toplantıdakı çıxışını xatırladıqca düşüncələrim ən çox “Altıncı çağırış” ifadəsinə yönəlirdi.

Düşünürdüm ki, bir qərinəyə yaxın tarixə malik parlamentə sahib olmağımız müstəqilliyini yeni qazanmış ölkəmiz üçün taleyin çox böyük bir lütfüdür. Bu çağırışların hər biri Azərbaycanda hüquqi dövlət quruculuğu prosesinin parlaq səhifəsidir. Xalqımızın Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf kursunun yeni zirvələrə yüksəlməsidir. Azərbaycan xalqının öz taleyinə sahibliyinin, qloballaşan dünyamızda bir çox cəmiyyətlər üçün hər cəhətdən nümunəvi olan bir dövlət qura bilmək əzminin göstəricisidir. Ölkəmizdə demokratik seçki ənənələrinin, parlamentarizm təcrübəsinin yeni inkişaf mərhələləridir.

Ötən əsrin əvvəllərində müsəlman Şərqinin ilk demokratik, parlamentli respublikasını elan etmiş islahatçı babalarımızın arzuladığı dövlətin də, Cümhuriyyətin ilk parlamentinin də ömrü bəlli səbəblərdən çox qısa müddət davam etmişdi. Heydər Əliyevin Cümhuriyyət ənənələri, dəyərləri üzərində qurduğu və bu gün cənab İlham Əliyevin böyük nailiyyətlər işığında gələcəyə doğru apardığı Azərbaycan dövləti isə artıq VI çağırış Milli Məclisin formalaşması tarixinin təntənəsini yaşayır.

Bütün bunlar ümumilikdə Azərbaycanımızın inkişafıdır. Bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan ölkəmizin möhtəşəm gələcəyi üçün sarsılmaz təməllərin yaradılmasıdır.

## Strateji baxış

Cənab İlham Əliyevin VI çağırış parlamentin ilk iclasında proqram xarakterli çıxışı zəmanəsinin ən parlaq liderlərindən olan dövlət rəhbərinin öz ölkəsinin bu günü və gələcəyinə strateji baxışının, aydın təsəvvürünün əksi idi. Dövlət rəhbərinin çıxışının ilk tezislərini beşinci çağırış Milli Məclis deputatlarına, onların göstərdikləri fəaliyyətə təşəkkür məzmununda qurulması, parlamentin əvvəlki tərkibinin ölkəmizin uğurlu inkişafında, bu inkişafın hüquqi bazasının gücləndirilməsi istiqamətində böyük rol oynadığının qeyd edilməsi siyasi mədəniyyətin göstəricisi, dövlətçiliyimizdə irs və varislik münasibətlərinin danılmaz təzahürü idi. Dövlət rəhbərimiz VI çağırış Milli Məclisin də uğurla fəaliyyət göstərəcəyinə inamını ifadə etdi. Ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfələrini verməyi onlar qarşısında ümdə vəzifə kimi aktuallaşdırdı.

Azərbaycan Prezidenti cənab İlham Əliyev milli dövlətçilik tariximizdəki bir çox mütərəqqi ənənələrin müəllifidir. Fevralın 9-da ölkəmizdə növbədənkənar parlament seçkisinin uğurla keçirilməsi də yeni ənənələrdən biri oldu. Ölkə həyatı üçün, təbii ki, hər bir seçki böyük əhəmiyyət daşıyır. 9 fevralda keçirilən seçkinin növbədənkənar xarakter daşıması isə bir yenilik idi. Növbədənkənar parlament seçkisinin ölkəmizdə ilk belə təcrübə olması ona hazırlıq prosesinin məsuliyyətini xeyli artırırdı. Amma həm hazırlıq işinin təşkili, həm seçkilərə kifayət sayda namizədin qatılmasına şərait yaradılması, həm də seçim prosesinin demokratikliyi ölkəmizdəki ictimai-siyasi sabitliyin, cəmiyyətdə oturuşmuş sivil ənənələrin, eləcə də zəngin seçki təcrübəsinin istənilən zamanda, zəruri şəraitdə, heç bir problem, gərginlik yaşanmadan keçirilməsinin gerçəkliyini təsdiq etdi.

## Yüksək etimad

Cənab İlham Əliyevin qeyd etdiyi kimi, seçkilərin fevral ayında keçirilməsinin əsas məqsədi islahatları dərinləşdirmək, vaxt itirmədən yeni tərkibdə Milli Məclisin işini təşkil etməkdən ibarət idi. Qarşıya qoyulmuş məqsədə nail olundu. Növbədənkənar seçki qərarı cəmiyyətdə böyük maraqla, yüksək siyasi fəallıqla qarşılandı. Seçkidə 1300-dən çox namizədin iştirakı bunun əyani sübutu idi. Bu, növbədənkənar parlament seçkilərinə insanların yüksək etimadından xəbər verirdi.

Hər bir namizədlə yerlərdə görüşlər keçirilərək, seçicilərlə intensiv iş aparılaraq namizədlərin öz fikirlərini, baxışlarını, ideyalarını azad şəkildə çatdırmaqdan ötrü şərait yaradıldı. Bütün namizədlər üçün bərabər imkanlar təmin edildi. Heç bir ayrı-seçkiliyə yol verilmədi. VI çağırış Milli Məclisə seçilmiş deputatların əksəriyyətinin cəmiyyətdə tanınmış, hər birinin öz sahəsində yetərincə uğur qazanmış insanlardan ibarət olması seçicilərin öz qəlblərinin səsi ilə seçim etdiklərini, beş il müddətində ali qanunverici orqandakı təmsilçiləri kimi bu insanlara şans verdiklərini göstərir. Milli Məclisə xeyli sayda gənc namizədlərin seçilməsi də xalqın gəncliyə etimadının, onların inkişafına, istedadına dəstək verməsinin, eyni zamanda, gəncliyin potensialından, enerjisindən, parlament həyatına gətirəcəkləri yeni ab-havadan gözləntilərin ifadəsidir. Həmin gənclər ki, qısa müddətdə öz təhsil və iş həyatlarında yetərincə nailiyyətlər əldə ediblər, indi onların Milli Məclisdə təmsilçiliyi həm ali qanunverici orqanımızın fəaliyyəti, həm gənc namizədlərə səs vermiş seçicilər, həm də ümumən cəmiyyətimiz üçün faydalı olacaq.

Azərbaycan dövləti seçkiləri müşahidə etmək üçün bir çox beynəlxalq təşkilatlardan müşahidəçilər dəvət etmişdi. Seçki prosesində kifayət sayda yerli və xarici müşahidəçilər iştirak etdi. Onların mütləq əksəriyyəti seçkilərin həm hazırlıq, həm kampaniya dövründə, həm də seçkilər günündə müşahidə apardılar. Müşahidəçilərin əksər hissəsi seçkiləri demokratiyanın inkişafında növbəti uğurlu addım kimi qiymətləndirdilər. Azərbaycan xalqının öz seçki hüququndan azad şəkildə istifadə etdiyini və seçkilərin nəticələrinin real mənzərəni əks etdirdiyini rəylərində göstərdilər.

Seçki elə bir siyasi hadisədir ki, onun nəticələrinin hamını razı sala bilməməsi təbii görünür. Hər kəs özünün, yaxud qalib olmasını istədiyi başqa namizədin seçilmədiyi seçkinin nəticələrini müəyyən qədər ədalətsiz sayır, burada hansısa qeyri-obyektivlik axtarmağa başlayır. Bu, insan xarakterindən irəli gələn psixoloji məqamdır. Seçkidə müəyyən qüsurlara yol verilməsi də gözlənilən haldır. Çünki milyonlarla vətəndaşın iştirak etdiyi belə kütləvi prosesdə heç bir qüsura yol verilməməsi praktik olaraq qeyri-mümkündür. Hətta dünyanın ABŞ kimi uzunmüddətli demokratik seçki ənənələrinə, formalaşmış seçki təcrübəsinə malik ölkəsində də seçki zamanı qüsurlara yol verilir. Bu xüsusda iddialar irəli sürülür, araşdırmalar aparılır. Təbii ki, dövlətin də vəzifəsi bu halları araşdırmaq və lazımi tədbirləri həyata keçirməkdir.

9 fevral parlament seçkisindən sonra ölkəmizdə 4 seçki dairəsi üzrə nəticələrin ləğvi qüsurlara yol verilməməsində, ilk növbədə, Azərbaycan dövlətinin maraqlı olduğunu göstərdi. “...Bizim əsas niyyətimiz ondan ibarət idi ki, Azərbaycan xalqı öz seçki hüququndan azad şəkildə istifadə etsin, bəyəndiyi namizədə səs versin, beləliklə, öz fikrini və öz siyasi iradəsini ifadə etsin. Bütövlükdə biz buna nail olmuşuq və seçkilərdən sonra artıq müşahidə olunan mənzərə onu göstərir ki, Azərbaycan xalqı seçkilərin nəticələri ilə razılaşıb. Bizim üçün əsas məsələ bundan ibarətdir”.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin parlamentdəki çıxışı zamanı səsləndirdiyi bu fikirlər real mənzərəni əks etdirir. Həyata keçirilən dövlət siyasətinin, məqsədyönlü inkişaf kursunun xalq tərəfindən yüksək səviyyədə dəstəkləndiyini bir daha təsdiq edir.

## Siyasi mədəniyyət nümunəsi

VI çağırış Milli Məclisin çoxpartiyalı məclis olması da seçkinin nəticələrinin müsbət məqamlarından biridir. Azərbaycan Prezidenti də ölkəmizdə siyasi sistemin təkmilləşdirilməsi işində Milli Məclisdən çox böyük gözləntilərinin olduğunu ifadə etdi. Bütün siyasi qüvvələrin iştirak etdiyi seçkilər nəticəsində çoxpartiyalı parlamentin formalaşmasını demokratiyanın inkişafında önəmli addım kimi dəyərləndirdi.

Xalqın dəstəyi ilə parlamentdəki yerlərin əksəriyyətini qazanmış Yeni Azərbaycan Partiyasından başqa digər partiyaların təmsilçilərinin də Milli Məclis və komitə rəhbərliklərində təmsil olunması bir ilkdir. Bu mütərəqqi ilk də Yeni Azərbaycan Partiyasının lideri cənab İlham Əliyevin hakim partiyanın parlamentdəki təmsilçilərinə tövsiyəsi əsasında baş tutub. Hər zaman xalqın, dövlətin maraqlarını üstün tutan Yeni Azərbaycan Partiyası da ümumi maraqlar naminə önəmli addımlar ataraq müxalifət nümayəndələrinin parlament rəhbərliyində təmsil olunmasına şərait yaradıb.

Azərbaycanda siyasi sistemin möhkəmləndirilməsi, siyasi münasibətlərin sağlam zəmində gücləndirilməsi baxımından bu cür mütərəqqi yeniliklər çox önəmlidir. Ümumiyyətlə, buna paralel olaraq ölkədəki müxalifət partiyalarına ünvanlanan dialoq çağırışları, Prezident Administrasiyasında siyasi partiyalarla və qanunverici orqanla iş üzrə ayrıca şöbənin yaradılması, müxtəlif müxalifət partiyaları təmsilçilərinin Prezident Administrasiyasına dəvət edilməsi, onlarla müzakirələrin keçirilməsi, fikir və rəylərinin dinlənilməsi onu göstərir ki, ölkəmizdə aparılan ardıcıl islahatlar hakimiyyət və müxalifət arasındakı siyasi münasibətlərə də sirayət edir. Hakimiyyət cəmiyyətdə siyasi mədəniyyətin güclənməsində, milli maraqlar ətrafında konsensusun əldə olunmasında, müxalif düşüncəli insanların da öz konstruktiv təklifləri ilə ölkəmizin yenilənməsinə fayda verməsində maraqlıdır.

Bu siyasi mədəniyyətin ən parlaq nümunəsini cənab İlham Əliyev və rəhbəri olduğu Yeni Azərbaycan Partiyası yaradır.

## Milli maraqlar naminə dialoq

Hamımız eyni bir vətənin övladlarıyıq. Azərbaycan hamımızın doğma yurdudur. Bu yurdun təəssübü, milli maraqları hər birimizə aiddir. Söhbət Azərbaycandan gedəndə bütün firqə maraqları arxa plana keçməlidir. İnsanlar arasında siyasi mövqe fərqinin, əks düşüncələrin olması normal bir haldır. Həqiqət əks fikirlərin qarşılaşması, polemikası zəminində ortaya çıxır. İnkişaf imkanları fərqli təşəbbüslər, müxtəlif baxışlar əsasında meydana gəlir. Hər hansı nöqsan və çatışmazlıqlar, görülən işin kəm-kəsiri sağlam tənqid əsasında aradan qalxır. Bütün bunlar tərəqqi üçün çox vacibdir. Amma dövlətin, xalqın maraqları elə bir dəyərdir ki, burada heç bir əks fikrə, müxalif düşüncəyə yer yoxdur.

Tənqid xatirinə tənqid, fərqli fikir əvəzinə görülən hər bir işə qara yaxmaq, qeyri-sağlam mövqe də əsla müxalifətçilik deyil! Belə davranışlar cəmiyyəti tərəqqidən saxlayır. Siyasi mədəniyyətin yüksəlişinə mane olur. Qaragüruh düşüncəyə meydan verir. Ona görə də mənfi təzahürlərin aradan qalxmasına böyük ehtiyac var.

Hakimiyyət siyasi islahatlara şərait yaradaraq konfliktlərin hər bir sivil cəmiyyətdə olduğu kimi, diskussiya məcrasına yönəlməsinə çalışır. Azərbaycan Prezidenti parlamentdəki çıxışında VI çağırış Milli Məclisin də bu sahədə öz sözünü deyəcəyini qeyd etdi. Eyni zamanda Prezident Administrasiyasının nümayəndələrinində son vaxtlar demək olar ki, bütün siyasi qüvvələrin rəhbərləri ilə görüşlər keçirdiklərini diqqətə çatdırdı. “Mənə bu görüşlər haqqında müntəzəm olaraq məruzə edilir. Bütövlükdə ilkin rəy müsbətdir. Hesab edirəm ki, indiki genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz. Bir partiya - hakim partiya təkbaşına siyasi dialoq apara bilməz. Çünki dialoq üçün tərəfmüqabillər lazımdır və ilkin təəssürat müsbətdir. Bu təşəbbüs heç bir şərt qoymadan həyata keçirilir”.

Dövlət rəhbəri qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımların atılacağını bildirdi və Azərbaycanda çoxpartiyalı sistemin daha da möhkəm əsaslar üzərində qurulacağını bəyan etdi. Cənab İlham Əliyevin fikrincə, hazırda siyasi partiyanı yaratmaq üçün heç bir ciddi meyarın tələb olunmaması praktikasına da son qoyulmalıdır. “Əgər biz doğrudan da istəyirik ki, Azərbaycanda çoxpartiyalı sistem inkişaf etsin, - biz bunu istəyirik və iqtidar partiyası kimi bunu təqdir edirik, - onda, əlbəttə, siyasi partiyaların fəaliyyəti üçün lazım olan bütün alətlər spektri mövcud olmalıdır. Bu, hesab edirəm ki, Milli Məclisin gündəliyində duran məsələlərdən biri olacaqdır”.

## Qeyri-sağlam ünsürlərin gülünc “boykot”u

Cəmiyyət tərəfindən dəstəklənməyən, radikal mövqeyinə görə artıq tam marginallaşmış və bütün dayaqlarını itirərək dərnək tipli qruplaşmaya çevrilmiş qeyri-sağlam ünsürlər, hakimiyyətin sağlam niyyətlə irəli sürdüyü dialoq təşəbbüsünü də, əfsus ki, gözdən salmağa çalışırlar. Hakimiyyət nümayəndələri ilə görüşlərdən, dialoqlardan imtina edirlər. Azərbaycanın yeni siyasi konfiqurasiyasının formalaşması prosesindən özlərini kənarda qoymağın ziyanını, təbii ki, onlar çəkəcəklər.

Bu ünsürlərin ölkədəki bütün siyasi qüvvələrdən fərqli olaraq seçkiləri boykot etmək yolu tutması da onların qeyri-sağlam mahiyyətindən, xalq arasında heç bir ciddi dayağa malik olmadıqlarından və bunu da çox gözəl bilmələrindən irəli gəlir. Belə bir durumda onların boykot sözünü dilə gətirmələrinin özü belə gülməlidir. Azərbaycan Prezidentinin də bəyan etdiyi kimi, Azərbaycan xalqı bu rüsvayçı qurumu çoxdan boykot edib. 27 ildir ki, onlar tarixin zibilxanasındadırlar. Belə olan halda boykot elan etmək həm gülməli, həm də təəccüblüdür.

## Yeni mərhələ

Milli Məclisin ilk iclasındakı çıxışında Azərbaycan Prezidenti həyata keçirilən siyasətin ilkin mərhələsinin anonsunu vermiş oldu. Həm seçkilərin, həm də seçkilərdən sonrakı dövrdə iqtidar tərəfindən siyasi partiyalara yönəlmiş addımların mövcud siyasətin yeni mərhələsini əks etdirdiyini bəyan etdi. Bu, dövlət rəhbərimizin həyata keçirdiyi islahatçı kursun mahiyyətini göstərdi.

“Bildiyiniz kimi, islahatların yeni mərhələsi 2018-ci ilin Prezident seçkilərindən sonra başlamışdır. Bu islahatları mən andiçmə mərasimində, bax, bu salonda bəyan etmişdim. Biz onları ardıcıl olaraq icra edirik və bu, həyatda öz əksini tapır. Bir də onu göstərir ki, həmişə olduğu kimi, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur” - deyən Azərbaycan Prezidentinin bu qətiyyəti, əminliyi, verdiyi sözü hər zaman mötəbər tutması islahatlar kursunun yeni mərhələsinin də xalqımıza, dövlətimizə gətirəcəyi nailiyyətlərdən, faydalardan, milli dövlətçilik tariximizdə açılacaq daha parlaq səhifələrdən xəbər verir.

Azərbaycanda aparılan islahatlar kursunun ən önəmli məqamlarından biri də bu kursun reallaşdırılmasında Azərbaycan qadınlarının iştirak imkanlarının daha da genişləndirilməsidir. Bu da tamamilə məntiqidir. Eyni zamanda qadınlarımızın yüksək potensialına, bilik və bacarıqlarına, vətən sevgisinə, fədakarlığına, işgüzarlığına, yüksək qabiliyyətinə və məsuliyyət hissinə inamdan irəli gəlir. Təsadüfi deyil ki, irəli sürülmüş islahatlar kursunun uğurla həyata keçirilməsində, öz məqsədlərinə çatmasında, insanların baş verən müsbət dəyişikliklərdən faydalana bilməsində Prezidentimizin ən yaxın silahdaşı da məhz Azərbaycan qadınıdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şəxsində Azərbaycan qadını həyata keçirilən islahatlar kursuna, inkişaf strategiyasına öz layiqli töhfələrini verir. Azərbaycan insanı üçün yeni dəyərlər yaradır. Dövlətin öz vətəndaşlarının rifahı naminə reallaşdırdığı sosial proqramların faydalarının hər bir vətəndaşımıza çatması üçün böyük təşkilatçılıq məharəti nümayiş etdirir. Milli-mənəvi dəyərlərimizi göz bəbəyi kimi qoruyur, bütün dünyada tanıdır, onlara əbədi həyat bəxş edir.

Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadını ən çətin, məsuliyyətli işlərdə nə qədər yüksək bacarığa sahib olduğunu göstərir, Azərbaycan qadınını layiq olduğu mövqelərə yüksəldir. Eyni zamanda qadınlara tarixdə ilk dəfə səsvermə hüququ verilmiş ölkə olaraq, Azərbaycanda qadın fəallığı ənənələrinin güclü olduğunu bütün dünyaya nümayiş etdirir. Qadınlarımızın ölkə həyatında fəal iştirakını göstərir. Bu fəallıq getdikcə artır. Xanımlarımız ictimai-siyasi fəaliyyətə daha geniş şəkildə cəlb olunur. Mehriban xanım Əliyevanın yaratdığı nümunə Azərbaycan qadını üçün yeni bir tarix yaradır. Bu, cəmiyyətin inkişafına, bugünümüzə və gələcəyimizə misilsiz töhfələr verən qürur duyulası bir tarixdir. Azərbaycan ailələrində böyüyüb boya-başa çatan qız balalarımızın inkişafı, cəmiyyətdə öz layiqli yerlərini tutmaları, böyük uğurları üçün indi Mehriban xanım Əliyeva kimi parlaq qadın lideri və istinadgahı var.

VI çağırış Milli Məclisin ilk iclası da bu baxımdan tariximiz üçün çox maraqlı bir yeniliklə başlandı. Milli Məclisin Sədri vəzifəsinə Bakı Slavyan Universitetinin beynəlxalq münasibətlər üzrə prorektoru, professor, filologiya elmləri doktoru Sahibə Qafarova seçildi. Ali qanunverici orqan rəhbərliyinə bu seçimin daha bir önəmli məqamı ondan ibarətdir ki, Sahibə xanımın elmi araşdırmalarında gender məsələləri xüsusi yer tutur. O, gender sahəsinin tanınmış mütəxəssislərindən biri kimi Azərbaycanı müxtəlif beynəlxalq platformalarda təmsil edib. Bu sahədə zəngin təcrübəyə malikdir. Belə bir şəxsin Azərbaycan Respublikası Milli Məclisinə rəhbərlik etməsi ölkəmizdə parlamentarizm ənənələrinin inkişafı prosesində xanımlarımızın fəal iştirakına, gender bərabərliyi ilə bağlı qanunvericilik bazasının daha da təkmilləşdirilməsinə, cəmiyyətdə qadın fəallığı ənənələrinin güclənməsinə böyük fayda verəcək. Eyni zamanda belə nümunələr islahatlar kursunun yeni mərhələsində, ölkəmizdə çoxpartiyalı sistemin inkişafında xanımlarımızın fəal, səmərəli iştirakı baxımından əhəmiyyətli rol oynayacaq.

## Adın şərəfi

“Azərbaycan qadını” ifadəsinin özündə bir dəyər yaşayır. Bu dəyər aid olduğu hər yerdə bütövlüyün, saflığın, yüksək mənəviyyatın, etibar, vəfa və sadiqlik hissinin rəmzi kimi çıxış edir. Ona görə də xanımlarımız ictimai-siyasi proseslərə, hakimiyyətin ayrı-ayrı qollarının fəaliyyətinə nə qədər cəlb olunsalar, bu, ümumiyyətlə, Azərbaycan cəmiyyətinin tərəqqisinə təkandır.

“Azərbaycan qadını” adı, eyni zamanda, bir şərəfdir, qürurdur. Bu adın şərəfinin, ucalığının bugünümüzə qədər gəlib çıxması öz isməti, tərbiyəsi, təmiz adı, el-obanın başını həmişə uca etməsi naminə misilsiz fədakarlıqlar göstərmiş milyonlarla qadınımızın fədakarlıqları, min bir məşəqqətləri, mənəvi gücü sayəsində mümkün olub. Bütün bunlara ən azı sayğı duymaq, “Azərbaycan qadını” adını öz ucalığında gələcək nəsillərə ötürmək bu adı daşıyan hər bir qadının müqəddəs borcu, ali missiyası olmalıdır.

8 Mart münasibətilə feminizm təəssübkeşliyi adı altında Bakının mərkəzində bir qrup gəncin keçirdiyi aksiyanı hamı kimi mən də internetdən izlədim. Və açığı gördüyüm mənzərəyə çox utandım. Utanc hissi keçirməyimin səbəbi təkcə onların “Azərbaycan qadını” adının müqəddəsliyi ilə bir araya sığmayan biabırçı davranışları, qaldırdıqları biədəb şüarlar deyildi! Eyni zamanda ona utandım ki, bu gənclər Azərbaycana qarşı indi də bu səmtdən hərəkətə başlayan xarici qüvvələrin əlində ucuz alətə çevriliblər?!

Biz - bu gənclərin müəllimləri, valideynləri onların tərbiyəsində, yetişməsində görəsən hansı yanlışlara yol vermişik, nələri diqqətdən kənarda qoymuşuq ki, onların əməllərindən bu gün bu qədər xəcalət çəkirik?!

Guya Azərbaycan qadını üçün küçələrə çıxan bu gənclər fərqində deyildilər ki, bununla ən böyük zərbəni elə qadınlarımıza, analarımıza vururlar. Azərbaycanda qadın fəallığı ənənələrinin genişlənməsi, bir müsəlman ölkəsinin gender məsələlərində, demokratik inkişafda bu qədər irəli gedib başqaları üçün də nümunə yaratması, eyni zamanda tarixən cəmiyyətimizdə möhkəmliyi qorunan ailə institutunun mövcudluğu görünür hansısa xarici qara qüvvələri narahat etməyə başlayıb. Milli-mənəvi dəyərlərimizi məhv edib sıradan çıxarmaq, tədricən inkişaf proseslərini yanlış səmtlərə yönəldib öz əsas məqsədindən uzaq salmaq üçün qrant bulağının gözünü açıblar.

Və davranışlarının məsuliyyətini, mahiyyətini dərk edəcək qədər yüksək amal və dünyagörüşünə malik olmayan bir qrup gənci, əfsus ki, təsir altına sala biliblər. Bunun da arzuolunmaz nəticəsi 8 Mart günü şəhərin mərkəzində yaranan, sosial şəbəkələrdə ayrı-ayrı görüntüləri yayılan xoşagəlməz mənzərədir.

## Gender siyasəti

Amma o mənzərəyə nə qədər üzülmüşdümsə, cəmiyyətimizin buna verdiyi düzgün qiymətdən, o gənclərin qeyri-adekvat davranışlarına ictimai qınaqdan min qat qürurlandım. Ona qürurlandım ki, qadın azadlığını qadın hüquqlarının qorunmasının bütün dəyərlərinin sıradan çıxarılmasında, qadın adının, zərifliyinin, onun ismətinin ayaqlar altına atılmasında görən bu “feminist”lərdən çox-çox fərqli olaraq cəmiyyətimizdə qadın azadlığının mahiyyəti barədə düzgün təsəvvürə, dərin bilgilərə malik vətəndaşlarımız, gənclərimiz qat-qat çox və təəssübkeşdirlər. Bu gün Azərbaycan qadını qarşısında duran əsas problemlər çoxları üçün aydındır. Bu problemin həlli yolları haqqında insanlarda yekdil mövqe var. Ən önəmlisi isə, bu yekdil mövqe Azərbaycan dövlətinin, ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətlə üst-üstə düşür. Daha dəqiq ifadə etsəm, cəmiyyətin yeni tarixi dövrdə qadınlarla bağlı gözləntilərini, arzularını, təşəbbüslərini Azərbaycan hökuməti sosial siyasətin mühüm bir hissəsi kimi həyata keçirir.

Bu gün Azərbaycan qadını ilə bağlı problemlərin həlli qızların təhsil alıb peşəyə, sənətə yiyələnməsindən, çalışıb öz iqtisadi müstəqilliyini təmin etməsindən, maddi baxımdan heç kimdən asılı olmamasından, sağlamlığından, fərdi inkişafından, cəmiyyət həyatının bütün sahələrində həm qadınlara, həm kişilərə bərabər imkanlar mühitinin yaradılmasından asılıdır. Azərbaycan dövlətinin son illər ölkəmizdə təhsilin inkişafı, sahibkarlara, o cümlədən qadın sahibkarlara biznes qurma imkanlarının yaradılması, qadınların məşğulluğu, ictimai fəaliyyətə cəlb olunması istiqamətində həyata keçirilən tədbirlər məhz bu məqsədi daşıyır. Bu, ən düzgün siyasətdir və cəmiyyət də bu siyasətin müsbət nəticələrini zaman-zaman hiss etməkdədir.

## Müstəqil siyasətin uğurları

Azərbaycan dövləti cəmiyyət həyatının bütün sahələri üzrə aydın, əsaslandırılmış, məqsədyönlü inkişaf strategiyasına malikdir. Milli Məclisə seçkilərin nəticələri də bu strategiyanın alternativsizliyini bir daha diqqət mərkəzinə çəkdi. Ölkə yeni bir inkişaf mərhələsinə keçid dövründədir. Bu mərhələnin əsas prinsipləri şəffaflıq, məsuliyyət, niyyətin də, əməllərin də təmizliyi, nəticəyönümlü fəaliyyətdir. Bu məsələdə, təbii ki, yeni çağırış Milli Məclisimizin üzərinə böyük vəzifələr düşür.

“Bu gün biz müstəqil ölkə kimi yaşayırıq, müstəqil siyasət aparırıq, heç kimin işinə qarışmırıq, heç kimə də imkan vermirik ki, bizim işimizə qarışsın. Əminəm ki, biz bundan sonra da bu müstəqillik və inkişaf yolu ilə gedəcəyik. Əminəm ki, Azərbaycan parlamenti bu işdə fəal olacaq”.

Azərbaycan cəmiyyəti parlamentin dövlət rəhbərimizin bu ümidlərini doğruldacağına inanır və Milli Məclisdən həyata keçirilən inkişaf siyasətinə, islahatlar kursuna layiqli töhfələr gözləyir.

***Nurlana ƏLİYEVA,***
***YAP Qadınlar Şurasının sədri, professor***

## Biz birlikdə güclüyük!

# Məcburi köçkünlər üçün yeni qəsəbələr salınır

## Bu, Azərbaycanda hətta pandemiya dövründə sosial layihələrin davamlı olduğunun daha bir göstəricisidir

*Əvvəli 1-ci səh.*



Birinci qəsəbədə sosial infrastruktur obyektlərinin tikintisi də aparılır. Belə ki, burada 1512 şagird yerlik məktəb, 280 yerlik uşaq bağçası, klub-icma mərkəzi və musiqi məktəbi inşa edilir. Digər qəsəbədə 29 yaşayış binası tikilir, ümumilikdə isə burada 35 yaşayış binasının inşa edilməsi nəzərdə tutulur.

Sözügedən tədbir zamanı dövlət başçısına məlumat verildi ki, məcburi köçkünləri yeni yaşayış binalarında məskunlaşdırmaq üçün 50 hektar torpaq sahəsi ayrılıb. Bunun 17 hektar sahəsində salınmış qəsəbədə 1001 ailə yaşayır. Hazırda tikilən isə ikinci və üçüncü qəsəbələrdir. Bundan əlavə, 12 hektar boş ərazi qalıb ki, orada da 1008 ailənin yerləşdirilməsi planlaşdırılır. Dövlət başçısının tapşırığına uyğun olaraq hər cür sosial infrastruktura malik bu qəsəbələrdə 2500 ailə əvəzinə, 5000-ə yaxın ailə məskunlaşdırılacaq.

Prezident İlham Əliyev məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması üçün mütəmadi addımlar atır. Bunun sayəsində indiyədək 62 494 məcburi köçkün ailəsinin, yəni 115 min soydaşımızın mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Qeyd edək ki, həmin insanlar məişət şəraiti məhdud olan binalarda, yarımçıq tikililərdə, çadır şəhərciklərində, vaqonlarda məskunlaşmışdılar. Məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahədə aparılan genişmiqyaslı işlər sayəsində indi onlar müasir tipli qəsəbələrdə və rahat mənzillərdə yaşayırlar.

Dövlət eyni zamanda Qarabağ müharibəsi əlillərindən və şəhid ailələrindən də qayğısını əsirgəmir. Onlar da mənzil və fərdi evlərlə, habelə avtomobillərlə təmin olunurlar. Bu il aprelin 17-də Əmək və Əhalinin Sosial Müdafiəsi naziri və İqtisadiyyat naziri ilə keçirdiyi videobağlantı formatlı iclasda dövlət başçısının şəhid ailələrinə mənzillərin verilməsi ilə bağlı ciddi şəkildə maraqlanması da bir daha onun böyük humanistliyindən xəbər verir. Prezident bildirdi ki, pandemiya şəraitində də belə həmin ailələrin mənzillə təmin edilməsini gecikdirmək olmaz.

Azərbaycan dövlətinin siyasətində sosial yönümlü məsələlər böyük önəm daşıyır. Belə ki, dövlət iqtisadi inkişafdan əldə etdiyi gəlirin çox hissəsini əhalinin sosial müdafiəsinə yönəldir. Prezident İlham Əliyev çıxışlarında dönə-dönə bəyan edib ki, dövlət üçün əsas məsələ Azərbaycan vətəndaşının mənafeyidir. Dövlət başçısı bunu hər bir addımı ilə sübut edir. Təkcə keçən il əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə 2,3 milyard manat dəyərində iki mühüm sosial paket icra edildi.

Məlumdur ki, dünyanı çənginə alan koronavirus xəstəlik olmaqla bərabər, həm də insanların həyatına mənfi təsir göstərən sosial faktordur. Yəni insanlar iş yerlərini itirərək dolanışıq problemi ilə qarşılaşırlar. Dövlətimiz bu çətin anda da öz vətəndaşını darda qoymadı. Əhalini pandemiyanın fəsadlarından qorumaq üçün 3,5 milyard manatlıq dövlət dəstəyi paketi qəbul edildi. Azərbaycan vətəndaşları bu paketdən faydalanır və dövlətin onları çətinlikdə qoymadığı üçün qürur duyur və Prezidentə minnətdarlıqlarını bildirirlər.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# İlham Əliyevin yürütdüyü siyasət beynəlxalq miqyasda təqdir olunur

*Əvvəli 1-ci səh.*

Hazırda ölkəmizdə müalicə olunanların və vəfat edənlərin sayı Avropanın əksər dövlətləri ilə müqayisədə dəfələrlə aşağıdır. Bu da ilk növbədə virusun yayılmasının qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlərin nəticəsidir.

### ÜST-ün Baş direktoru: "Azərbaycan Prezidentinin güclü səylərini görürəm"

Məhz effektiv nəticələrə görə Azərbaycanda koronavirusa qarşı aparılan mübarizə beynəlxalq səviyyədə təqdir olunur. Xatırladaq ki, hələ fevralın sonlarında Azərbaycanda səfərdə olan Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) missiyasının məlumatında bildirilirdi ki, Azərbaycan öz ərazisini virusun yayılmasından etibarlı qorumağı bacarır. Məlumatda Azərbaycanın ÜST-ün yeni koronavirusun yayılmasının qarşısını almaq üçün ən qabaqcıl laboratoriya dəstlərini alan 17 ölkədən biri olduğu da qeyd edilirdi.

ÜST-ün Baş direktoru Tedros Adhanom Gebreyesus tərəfindən mart ayının 23-də Prezident İlham Əliyevə ünvanlanmış məktubda isə Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilib, Azərbaycan nümunəvi ölkə kimi dəyərləndirilib. Tedros Adhanom Gebreyesus COVID-19 pandemiyasının təsirinin və miqyasının məhdudlaşdırılması istiqamətində Azərbaycan Prezidentinin yürütdüyü siyasəti və atılan addımları təqdir edib.

Və ən son olaraq Tedros Adhanom Gebreyesus bu günlərdə keçirdiyi mətbuat konfransında Azərbaycanın koronavirus pandemiyasına qarşı həm qlobal, həm də regional mübarizəyə töhfəsindən danışıb. Ölkəmizin koronavirus pandemiyasına qarşı mübarizəyə verdiyi qlobal töhfəni yüksək qiymətləndirən ÜST-ün Baş direktoru deyib: "Mən Azərbaycan Prezidentinin milli, regional və qlobal səviyyədə bu mübarizədə güclü səylərini görürəm. İmkandan istifadə edərək cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm ki, bütün bu üç səviyyədə səyləri birləşdirir, dəstək verir".

### AYİB-nin prezidenti: "Siz və hökumətiniz bu böhranın öhdəsindən əla gəlirsiniz"

Azərbaycan Prezidentinin koronavirusla mübarizə və yaranmış vəziyyətin sosial-iqtisadi sferaya çətinlik yaratmaması ilə bağlı verdiyi qərarlar Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən də təqdir olunur. Məlum olduğu kimi, aprelin 28-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bankın prezidenti Suma Çakrabarti arasında videokonfrans keçirilib. Videokonfransda "Cənab Prezident, bizim fikrimizcə, Siz və hökumətiniz bu böhranın öhdəsindən əla gəlirsiniz. Qısa zamanda bir sıra təsirli tədbirlər həyata keçirilib ki, bununla bağlı Sizi təbrik edirəm", deyən Suma Çakrabarti indiki şəraitdə Azərbaycandakı iqtisadi vəziyyəti də yüksək dəyərləndirib.

Reallıq ondan ibarətdir ki, koronavirus pandemiyasına qarşı mübarizədə Azərbaycan bu gün dünya miqyasında müsbət mənada fərqlənən ölkələr sırasında, ən əsası, liderlərin cərgəsində yer alır. Çünki Prezident İlham Əliyevin yürütdüyü siyasətin nəticəsi olaraq respublikamız inkişaf etmiş ölkələrin bacarmadıqlarını böyük müvəffəqiyyətlə reallaşdırmaqdadır. Bunun nəticəsidir ki, dövlətimiz öz vətəndaşlarını pandemiyaya kütləvi yoluxmadan layiqincə xilas edir. Beləliklə, İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünya miqyasında növbəti dəfə uğurlu nümunə göstərməkdədir. Bu uğurlu siyasətin məntiqi nəticəsi olaraq yaxın günlərdə respublikamızda koronavirusa birdəfəlik son qoyulacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İlə yaxşı başlamışıq



*Əvvəli 1-ci səh.*

DSK xəbər verir ki, yanvar-mart aylarında Azərbaycanda 10,6 milyard manatlıq (keçən ilin eyni dövründəkindən 0,8 faiz çox ) sənaye məhsulları istehsal edilmişdir. Yeri gəlmişkən bildirək ki, ilk rübdə sənayenin qeyri-neft və qaz sektorunda məhsul istehsalı 23 faiz artmışdır.

Bu dövrdə sənaye məhsullarının 65,5 faizi mədənçıxarma, 28,4 faizi emal, 5,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. Mədənçıxarma sektorunda neft hasilatı 3,9 faiz azalsa da, əmtəəlik qaz hasilatı 15,3 faiz artmışdır. Artım həmçinin emal sektorunda bir çox məhsulların istehsalı üzrə (məsələn, avtomobil, qoşqu və yarımqoşquların, kompüter, elektron və optik məhsulların, metallurgiya sənayesi, eləcə də əczaçılıq məhsullarının, içkilərin, elektrik avadanlıqları və s.-nin istehsalında) qeydə alınmışdır.

DSK-nın hesabatına əsasən, ilin ilk rübündə ölkə üzrə əsas kapitala 2,9 milyard manatdan artıq vəsait yönəldilmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrünə nisbətən 6,5 faiz çoxdur. Bu dövrdə istifadə olunmuş vəsaitin 69 faizi məhsul istehsalı, 21 faizi xidmət, 9,9 faizi yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 58,2 faizini daxili sərmayələr təşkil edən əsas kapitala yönəldilmiş vəsaitlərin 57,5 faizi bilavasitə tikinti quraşdırma işlərinə xərclənmişdir.

Yanvar-mart aylarında ölkənin nəqliyyat, informasiya və rabitə sektorlarında da müsbət nəticələr müşahidə olunmuşdur. DSK-nın hesabatına görə, bu dövrdə ölkə üzrə 50,8 milyon ton yük, 440,6 milyon nəfər sərnişin daşınmışdır. İnformasiya və rabitə sektorunda isə 546,6 milyon manatlıq müxtəlif xidmətlər göstərilmişdir.

Pərakəndə ticarət dövriyyəsinə gəldikdə, ilk rübdə əhaliyə 9,2 milyard manatlıqdan çox məhsul satılmışdır. Bu aylarda əhali, həmçinin 2 milyard manatlıq ödənişli xidmətlərdən istifadə etmişdir. Başqa bir fakt: keçən ilin eyni dövrünə nisbətən cari ilin 3 ayında əmtəə dövriyyəsi 1,2 faiz artmışdır.

Bu artımın bir səbəbi də əhalinin gəlirlərinin çoxalması ilə bağlıdır. DSK xəbər verir ki, hesabat dövründə ölkə əhalisinin gəlirləri nominal ifadədə 6,8 faiz artaraq 13,4 milyard manata çatmışdır. Muzdla işləyənlərin orta aylıq maaşları isə yanvar-fevral aylarına olan məlumata görə, 28,4 faiz artaraq 712,3 manat olmuşdur.

Göründüyü kimi, ölkə ərazisində martın 24-dən başlamış sərt karantin tədbirlərinin iqtisadiyyata məlum təsirlərinə, eləcə də neftin dünya bazarında kəskin ucuzlaşması nəticəsində valyuta gəlirlərimizin xeyli azalmasına baxmayaraq, birinci rübün makroiqtisadi göstəriciləri əsasən müsbətdir. Amma Prezident İlham Əliyevin də bildirdiyi kimi, növbəti rüblərdə bu müsbət dinamikanı saxlamaq asan olmayacaq. Çünki bütün ölkələr kimi Azərbaycan da pandemiyanın ağır şərtlərini günü bu gün də yaşayır. İnsanların sağlamlığını qorumağa xidmət edən həmin şərtlərin zərbəsi isə ilk növbədə iqtisadiyyata dəyir. Bununla belə, vaxtında görülən tədbirlər sayəsində ölkəmizin koronavirus böhranından da minimum itki ilə çıxacağı şübhə doğurmur.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi daha 100 min şəxs üçün birdəfəlik ödəniş vəsaiti köçürüb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən işsizlərdən və xüsusi karantin rejiminə görə işini itirən qeyri-formal məşğul şəxslərdən ibarət daha 100 min aztəminatlı üçün birdəfəlik vəsait (190 manat) aidiyyəti üzrə bank və poçt filiallarına köçürülüb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, birdəfəlik ödəmə vəsaiti köçürülənlərin sayı 500 minə çatıb.

Vəsaiti köçürülən şəxslərə bu ödəməni almaq üçün müraciət edərkən qeyd etdikləri telefon nömrəsinə SMS göndərilir.

Onlara mesaj gəldikdən sonra evdən çıxmaq üçün müvafiq qaydada icazə alaraq, mesajda "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti qeyd edilibsə, istənilən poçt şöbəsinə, bank göstərilibsə, həmin bankın istənilən filialına şəxsiyyət vəsiqəsi ilə müraciət etməklə birdəfəlik ödəməni ala bilərlər.

Qeyd edək ki, aprelin 9-dan birdəfəlik ödənişlərin verilməsinə başlanılıb. Hazırda ödənilən maliyyənin ümumi məbləği 95 milyon manatdır.




# Qlobal pandemiyaya qarşı uğuru sosial məsuliyyətsizliklə əldən verməyək

## Yer üzündən bu bəla tamamilə silinməyincə təhlükənin sovuşmasına sevinmək yersizdir

*Əvvəli 1-ci səh.*

### Ölkəmizdə virusa qarşı effektiv tədbirlər həyata keçirildi

Azərbaycanda isə hələ virusun yeni alovlandığı ilk günlərdən etibarən həyata keçirilən effektiv tədbirlər öz müsbət təsirini göstərməyə başladı. Deməlk olar ki, artıq ölkə daxilində virusu yox etməyin bir addımlığındayıq. Xəstəliyin erkən aşkarlanması üçün diaqnostik testlərin sayı çoxalıb və aparılan testlərin nəticəsi də göstərir ki, yoluxma halları xeyli azalıb. Sadalanan bu müsbət göstəricilərə görədir ki, Azərbaycanda tətbiq olunan karantin rejimi mərhələ-mərhələ yumşaldılma ərəfəsindədir.

Artıq aprelin 27-dən etibarən koronavirus təhlükəsi ilə əlaqədar olaraq ölkə ərazisində tətbiq olunmuş məhdudiyyətlərin bir qismi yumşaldılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatında bildirilir ki, COVID-19 virusu ilə bağlı hazırkı sanitar-epidemioloji vəziyyət, xüsusilə də xəstəliyin yayılma dinamikası və coğrafiyası, karantin zonalarındakı şəxslərin sıxlığı və onlar arasında virusa yoluxma halları təhlil edilib və 27 aprel 2020-ci il tarixindən məhdudiyyətlərin bir qisminin yumşaldılmasına qərar verilib.

Yaşayış yerini tərk etmək üçün 8103 nömrəsinə SMS məlumat göndərilərkən gələn icazələrin müddəti 2 saatdan 3 saatadək artırılıb.

### Azərbaycan Prezidenti böhranı idarə etmək gücünə qadir komanda yaratdı

Azərbaycanda pandemiya ilə mübarizədə mühüm addımların atılması, dövlətimizin bütün imkanlarını virusun yayılmasının qarşısının alınması və onun fəsadlarının aradan qaldırılmasına yönəltməsi isə birbaşa Prezident İlham Əliyevin qətiyyətli və çevik siyasəti nəticəsində əldə olundu.

Bu nailiyyətlər dünyanın diqqətindən də yayınmadı və aprelin 28-də Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Suma Çakrabartinin Prezident İlham Əliyevlə keçirdiyi videokonfransda səsləndirdiyi fikirlərlə bir daha təsdiqini tapdı: "Həqiqətən də koronavirus pandemiyası ildırım sürəti ilə dünyaya yayılanda biz onun şahidi olduq ki, bir sıra dövlətlər bu bəlanın qarşısında aciz qaldılar, bəzi liderlər isə qətiyyətli və düzgün qərarlar verməkdə çətinlik çəkdilər, gözləmə mövqeyində dayandılar və nəticədə misilsiz problemlərlə üzləşdilər. Azərbaycan Prezidenti isə ilk gündən reallıqları dəyərləndirməyi bacardı, gələcək təhlükələrin konturlarını dəqiq təyin etdi və böhranı idarə etmək gücünə qadir olan komanda yaratdı. Virusun gəldiyi ünvan dəqiqləşdirilən kimi qonşu dövlətlərlə birlikdə sərhədlərin bağlanmasına qərar verildi. Azərbaycan digər ölkələri qabaqlamaqla səhiyyə sisteminin hazırlanması və düzgün idarəçiliyin qurulması üçün əlavə vaxt qazandı".

### Təhlükənin ikinci dalğası ilə üz-üzə qalmayaq

Göründüyü kimi, pandemiyanın Azərbaycan ərazisində yayılmasının qarşısının alınması istiqamətində dövlətimiz tərəfindən vacib addımlar atılıb və hazırda müşahidə olunan müsbət tendensiya da məhz buna görədir.

Amma bu nailiyyətlər vətəndaşlarda virusun tamamilə məhv olması, yoluxma riskinin sıfıra enməsi hissi yaratmamalıdır. Çünki arxayınlığa qapılaraq tam qələbəyə sevinmək tezdir. Ölkəmizdə hələ də epidemioloji vəziyyət müşahidə olunur və sayıqlığı əldən vermək olmaz.

Virusoloqlar, bu sahə üzrə mütəxəssislər koronavirus pandemiyasının ikinci dalğasının labüdlüyündən də bəhs edirlər. Bütün bunlar isə COVID-19-a yoluxmanın qarşısını alan, ölüm sayını azaldan ölkələr üçün də bir xəbərdarlıqdır. Ehtiyatlı olmaq, sosial izolyasiyaya, gigiyenik qaydalara əməl etmək, virusun yayıldığı ilk zamanlardakı kimi elə indi də həyati əhəmiyyət daşıyır. Nə qədər ki, koronavirusa qarşı peyvəndlər effektiv olmayıb və Yer üzündən bu bəla tamamilə çəkilməyib, təhlükənin sovuşduğunu düşünmək yersizdir.

### Zərurət yaranarsa, xüsusi karantin rejimi yenidən sərtləşdirilə bilər

Azərbaycanda karantin rejimi yumşaldılsa da, Operativ Qərargah əhalini diqqətli olmağa, ehtiyatı əldən verməməyə və qoyulan qaydalara ciddi riayət etməyə çağırır.

Qurumun məlumatında deyilir ki, elan olunduğu kimi, COVID-19 virusu zəminində ölkədəki sanitar-epidemioloji vəziyyət mütəmadi təhlil edilərək mövcud vəziyyətə uyğun qaydalar tətbiq olunur. Bu səbəbdən COVID-19 virusuna yoluxma dinamikası və xəstəliklə əlaqədar ölkədəki ümumi vəziyyət zərurət yaradarsa, xüsusi karantin rejiminin yenidən sərtləşdirilməsi mümkündür: "COVID-19 virusuna qarşı bütün tədbirlər əhalinin sağlamlığı və təhlükəsizliyinin təmin edilməsi naminə həyata keçirilir. Ötən müddət ərzində ölkə ərazisində virusun geniş yayılmasının qarşısını məhz dövlət-vətəndaş həmrəyliyinin nəticəsində almaq mümkün olmuşdur. Bu baxımdan hər bir şəxsi sosial məsuliyyətdən irəli gələrək dövlət tərəfindən həyata keçirilən tədbirlərə yaxından dəstək olmağa, Operativ Qərargahın tələb və tövsiyələrinə əməl etməyə çağırırıq".

Həmçinin COVID-19-la bağlı hazırkı vəziyyətdə hamı şəxsi gigiyenaya, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, yalnız ciddi ehtiyac yarandıqda evdən çıxmağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa, mövcud preventiv tədbirlərin şərtlərinə əməl etməyə çağırılır. Koronavirusla mübarizə uzunmüddətli proses olduğundan xəstəliyə qarşı qabaqlayıcı tədbirlər hər bir şəxsin gündəlik həyat tərzi kimi tövsiyə edilir.

### Yalnız bu halda koronavirusun ölüm nəfəsini boğa bilərik...

İndi Azərbaycan vətəndaşlarının üzərinə düşən əsas vəzifə COVID-19-a qarşı əldə etdiyimiz qələbəni qoruyub saxlamaqdır. Hər birimiz şəxsi məsuliyyət nümayiş etdirərək ölkəmizin, xalqımızın gələcək taleyini bu bəladan sığortalamalıyıq.

Məlum olduğu kimi, virusun sürətlə yayılması, immuniteti zəif, yaşı 65-dən yuxarı, xüsusilə xroniki xəstəlikləri olanları yaxalaması onu daha da təhlükəli, qarşısıalınmaz edir...

Bütün bu məqamlara qarşı həssas davranmaq mütləqdir. Karantin qaydaları yumşaldılsa da, qoyulan qaydalara riayət etmək, ehtiyac olmadan küçələrə çıxmamaq və evdə qalmaq zərurətdir. Özümüzün, ailəmizin, doğmalarımızın təhlükəsizliyinə görə sosial nəzarəti gücləndirməliyik. Məsuliyyətsiz davrananlarla bağlı tədbir görülməsi üçün də aidiyyəti qurumlara məlumat verməliyik.

Yalnız bu halda koronavirusun zəhərli zəncirini qıra və ölüm nəfəsini boğa bilərik...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# REGİONLAR



# Masallıda qızğın iş gedir

Masallı rayonu respublikamızın əhalisi ən sıx olan bölgələrindən biridir. Burada 228 minə yaxın əhali yaşayır və hər kvadrat kilometrə 316 nəfər adam düşür. Deməli, burada adamların təması da daha sıx ola bilər.

Elə buna görə də rayon icra hakimiyyəti və digər müvafiq icra strukturları koronavirus pandemiyasının qarşısının alınması, ziyanın minimuma endirilməsi üçün təxirəsalınmaz tədbirlər görməkdədirlər. Belə ki, bu məqsədlə rayonda xüsusi qərargah yaradılmışdır.





## Tədbirlər davam etdirilir

Qərargahın göstərişinə əsasən, rayon Gigiyena-Epidemiologiya Mərkəzi və Dezinfeksiya Stansiyası birlikdə 95 təhsil ocağında, 2 məktəbdənkənar, 19 məktəbəqədər təhsil müəssisəsində, 140 məsciddə, rayon icra hakimiyyətində, "ASAN xidmət" Mərkəzində, Sənaye Məhəlləsində, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsində, Olimpiya İdman Kompleksində, Kapital və Beynəlxalq Bank filiallarında, "Masallı" və "Viləş" hotellərində, ticarət obyektlərində, küçə və meydanlarda, bazarlarda, yaşayış binalarının yerləşdiyi ərazilərdə, nəqliyyat vasitələrində, habelə başqa zəruri yerlərdə 4-5 dəfə dezinfeksiya işləri həyata keçirmişlər.

Rayonun inzibati ərazi üzrə nümayəndələri, bələdiyyə üzvləri, YAP-ın fəalları yaşı 65-dən çox olan 10 min 343 nəfərlə görüşərək vəziyyətləri ilə maraqlanmış, onlarla maarifləndirici söhbətlər aparmışlar. Həmçinin DSMF-nin rayon şöbəsinin əməkdaşları bu yaş kateqoriyasından olan insanlara baş çəkir, onların sosial-məişət şəraitləri ilə maraqlanır, gündəlik tələbat mallarına, dərman vasitələrinə olan ehtiyaclarını öyrənir, bu işdə hər birinə kömək göstərirlər.

Rayon icra hakimiyyəti aparatının əməkdaşları, polis işçiləri, inzibati ərazi nümayəndələri, bələdiyyə sədrləri, məktəb direktorları 37 mobil qrupda birləşərək mütəmadi şəkildə vətəndaşların yanında olur, onlara maska və spirt paylayırlar.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov inzibati orqanların rəhbərləri ilə birlikdə Heydər Əliyev prospektində, 20 Yanvar, Azərbaycan, Qarabağ küçələrində, Xətai parkında vətəndaşlarla söhbətlər aparmış, onlara evdə qalmaları və zəruri ehtiyac olmadan evdən çıxmamaları barədə tövsiyələr vermişlər.

Bu ağır günlərdə dövlətimizlə bərabər xalqımızın imkanlı, səxavətli insanları aztəminatlı ailələrin, yaşlıların yanında olur, onları hər vasitə ilə dəstəkləyirlər. Masallıdakı xeyriyyəçilik aksiyalarında rayon icra hakimiyyəti, YAP-ın rayon təşkilatı, Milli Məclisə yeni seçilmiş deputatlar Məşhur Məmmədov, Anar İsgəndərov, Cavanşir Paşazadə, sahibkarlardan Ramazan Mirzəyev, Tahir Niftullayev, Laçın Sadıqzadə, "Ümid Sənsən" İctimai Birliyinin rəhbəri Fidan Abbaslı və onlarca başqaları fəal iştirak edirlər.





## Kənd təsərrüfatı işləri geniş vüsət alır

Yazın gəlişi ilə havalar istiləşir, günlər uzanır. Bu isə torpağın hər bir kənd adamını, fermeri, sahibkarı öz qoynuna səsləməsi deməkdir. Masallı rayon əhalisinin də dədə-babadan çörəyi əsasən torpaqdan çıxıb. Dövlət tərəfindən kənd təsərrüfatına göstərilən diqqət və qayğı nəticəsində, hər yerdə olduğu kimi, Masallı rayonu da sürətlə inkişaf etməyə başlamışdır. Çəltikçilik, çayçılıq, sitrus meyvəçiliyi, tərəvəzçilik, tütünçülük rayon üçün uzun illərdən bəri ənənəvi sahələr olmuşdur. Lakin keçən əsrin 90-cı illərinin məlum hadisələrindən sonra həmin sahələr, demək olar ki, başlı-başına buraxılmışdı. Çay plantasiyaları, meyvə bağları, tərəvəz əkilən ərazilər mal-qara üçün otlaq yerinə çevrilmişdi. 2004-cü il fevral ayının 11-də ölkə başçısı cənab İlham Əliyevin imzaladığı regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında respublikanın hər yerində olduğu kimi, Masallıda da kənd təsərrüfatının dirçəldilməsi məqsədilə tədbirlər nəzərdə tutulmuş və onların icrasına start verilmişdir. II və III Dövlət proqramları çərçivəsində həmin məsələlər mərhələ-mərhələ öz həllini tapmış, IV Dövlət Proqramı isə uğurla davam etdirilməkdədir.

Statistik rəqəmlərə nəzər saldıqda görürük ki, 2016-cı ildə rayon üzrə əgər 7,6 hektara çəltik əkilmişdisə, bu rəqəm keçən il 217 hektar olmuş və orta məhsuldarlıq 33,5 sentner təşkil etmişdir. Yetişdirilən "Haşimi", "Apolo", "Okean", "Sədri" sortları keyfiyyətli və ekoloji cəhətdən təmiz olduqları üçün alıcılar tərəfindən rəğbətlə qarşılanır. Cari ildə əkin aparılacaq sahələrdə hazırlıq işləri görülür. Su təchizatı nəzərə alınmaqla, qarşıdakı illərdə çəltikçiliyin daha da inkişaf etdirilməsi nəzərdə tutulmuşdur.

Tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün təsdiq edilmiş Dövlət Proqramının icrası ilə bağlı keçən il rayonda 35 hektarda tütün əkilmiş, məhsuldarlıq 16,4 sentner olmuşdur. Qurudulan 57,4 ton tütün Şəki və Zaqatala rayonlarındakı qəbul məntəqələrinə təhvil verilmişdir. Bu il rayon üzrə 5 hektarda tütün əkilməsi planlaşdırılmış, bunun üçün şitilliklər salınmışdır. Sahələrdə əkinə hazırlıq işləri aparılır.

Yaz yağışları taxıl zəmilərini cana gətirmişdir. Arpa əkilən yerlər artıq sünbül bağlayıb. Ümumilikdə rayon üzrə keçən ilin payızında 6 min 878 hektara buğda, 2 min 770 hektara arpa, 2 min 680 hektara vələmir əkilib.

İndiki halda yazlıq əkinlərin becərilməsi davam etdirilir. Mövcud 828 hektar kartof, 620,3 hektar tərəvəz, 130 hektar bostan, 11,1 hektar zəfəran, 345,5 hektar paxlalı bitki sahəsində becərmə işləri aparılır. Bu günlərdə novbar badımcan və faraş kartof məhsulunun yığılmasına başlanılacaqdır. 227,8 hektarda çiyələk əkilmişdir və burada da qızğın iş gedir.

Keçən il Aqrar Məşğulluğun Artırılması Layihəsi (AMAL) çərçivəsində rayonda daha 15 hektar yeni çay plantasiyası salınmışdır. Cari ildə çay əkini daha da genişləndiriləcəkdir.

Hazırda barama mövsümünə hazırlıq işləri görülür. Bu il rayonda vətəndaşlara 140 qutu barama toxumu paylanması nəzərdə tutulur. Bundan ötrü kümxanalar dezinfeksiya edilmiş, digər hazırlıq tədbirləri isə davam etdirilir.

## Daha 10 ədəd subartezian quyusu qazılacaq

İstər təbiət olsun, istər cəmiyyət, susuz yaşaya bilməz. Buna görə də su həyat, ruzi, bolluq hesab edilir. Ölkə başçısı cənab İlham Əliyev əhalinin, əkinlərin suya olan tələbatının ödənməsi üçün ardıcıllıqla tədbirlər görür, sərəncamlar imzalayır. Bu mənada Prezidentin 18 sentyabr 2018-ci il tarixdə Masallı rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncamı əhalini çox sevindirmişdir. Sərəncama əsasən, rayonda 3 min 230 hektar əkin sahəsinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə 37 kiçik su tutarında zəruri təmizləmə-bərpa işlərinin aparılması üçün "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-yə ilkin olaraq 1 milyon manat həcmində vəsait ayrılmışdır. Sərəncamın icrası ilə əlaqədar indiyədək 13 sututarda təmir-bərpa işləri başa çatdırılmışdır. Qalan işlər davam etdirilir. Görülmüş tədbirlər suvarma işlərinin aparılmasına imkan verir. Hal-hazırda Viləşçay su anbarında 46 milyon kubmetr, Babeser su anbarında 2 milyon 800 min kubmetr, bərpa edilmiş kiçik su anbarlarında isə 2,5 milyon kubmetr su ehtiyatı yaranmışdır. Bunlardan əlavə, suvarma kanalları lildən təmizlənmiş, qapalı suvarma şəbəkələrində təmir işləri başa çatdırılmış, Viləş su anbarının suburaxıcı qurğusunda mexaniki, hidravlik və elektrik avadanlıqları təmir edilərək saz vəziyyətə gətirilmişdir. Ölkə başçısının 12 fevral 2018-ci il tarixli sərəncamı ilə təsbit edilmiş "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı"nda rayon ərazisində yerləşən Viləş su anbarının ikinci növbəsinin tikintisi nəzərdə tutulmuşdur. Bununla əlaqədar müvafiq tədbirlər görülməkdədir.

Ölkə başçısı tərəfindən yaxın ərəfədə - 15 aprel 2020-ci il tarixdə daha bir sərəncam Masallı rayon əhalisinin böyük sevincinə səbəb olmuşdur. Sənəddə 36 min 274 nəfər əhalisi olan 10 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 10 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması nəzərdə tutulur. Bundan ötrü dövlət büdcəsindən "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-yə 700 min manat vəsait ayrılmışdır.

Bütün bunlar kənd təsərrüfatı məhsullarının istehsalının artmasına, keyfiyyətinin yaxşılaşmasına, habelə zəhmət adamlarının maddi rifah halının yüksəlməsinə gətirib çıxaracaqdır. Bunları dərindən başa düşən Masallı rayonunun kənd adamları yaz tarla işlərinə böyük inamla başlamışlar. Rayonda iş bulaq kimi qaynayır. Məlum virusla bağlı tədbirlərə əməl etməyi də unutmayan kənd zəhmətkeşləri ölkə üçün böyük əhəmiyyət daşıyan işlərə imza atmaqdadırlar.

***Seyran CAVADOV, "Azərbaycan"***

## Muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalı 2,5 faiz artıb



Muxtar respublikada 2020-ci ilin yanvar-mart aylarında bir il öncəyə nisbətən 2,5 faiz çox, yəni 29 milyon 652 min 800 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən Naxçıvan bürosuna bildirilib ki, 2020-ci ilin yanvar-mart aylarında muxtar respublikada diri çəkidə 6 min 330,5 ton ət, 13 min 60,7 ton süd istehsal edilib. Bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,7 və 1,8 faiz çoxdur.

Etibarlı ərzaq təminatı sisteminin yaradılması ixrac potensialını artırıb. 2020-ci ilin ilk rübündə muxtar respublikadan 12 milyon 153 min 500 ABŞ dolları dəyərində kənd təsərrüfatı, o cümlədən meyvə və tərəvəz məhsulları ixrac olunub.

## 500 hektaradək sahədə tütün əkini proqnozlaşdırılır

Builki mövsümdə Qax rayonunun təsərrüfatlarında 500 hektaradək sahədə tütün əkini proqnozlaşdırılır. Bir neçə gündür ki, fermer təsərrüfatlarında istixana şəraitində yetişdirilmiş tütün şitillərinin sahələrə köçürülməsinə başlanılıb. İlk günlər Şotavar, Qarabaldır və Tasmalı kəndlərinin ərazilərindəki təsərrüfatlarda 30 hektar sahədə "Virciniya botaniki" növlü tütün əkilib.

Bu barədə Qax Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun baş məsləhətçisi Ülvi Əzimov məlumat verib.

Qurum rəsmisi bildirib ki, tütün əkini ilə əlaqədar "Azərtütün ASK" MMC tərəfindən 41 fermerlə müqavilə bağlanılıb. Müqaviləyə əsasən, həmin fermerlər 306 hektar sahədə "Virciniya botaniki" növlü tütün yetişdirəcəklər. Bundan əlavə, builki mövsümdə torpaq mülkiyyətçiləri tərəfindən fərdi qaydada 189 hektar sahədə tütün əkilməsi də nəzərdə tutulur.

Xatırladaq ki, ötənilki mövsümdə qaxlı fermerlər 491,6 hektar sahədən 552,7 ton quru tütün əldə ediblər.

Baş məsləhətçinin sözlərinə görə, rayonun təsərrüfatlarında qarğıdalı əkini də davam edir. Fermerlər indiyədək 150 hektardan çox sahəyə qarğıdalı əkiblər.

## Çəltik əkini sahələri 300 hektara çatdırılacaq



Zərdab rayonunda çəltik əkininə ciddi hazırlıq işləri aparılır. Rayon icra hakimiyyətindən bildirilib ki, ötən il 211 hektar sahədən 1000 tondan çox çəltik istehsal olunan Zərdabda cari ildə əkin sahələrinin 300 hektara çatdırılacağı gözlənilir. Öz keyfiyyəti ilə seçilən yerli istehsala tələbat artdıqca torpaq mülkiyyətçiləri əkin sahələrini ildən-ilə genişləndirirlər. Hazırda çəltik səkkiz icra nümayəndəliyində, xüsusilə daha çox Yuxarı Seyidlər, Körpükənd, Məlikli, Əlibəyli ərazilərində əkilir.

Artıq şum çıxarılıb, kifayət qədər toxum tədarük olunub. May ayının ikinci ongünlüyündən əkinə start veriləcək.

## 440,9 hektar sahədə şəkər çuğunduru əkilib

Ağcabədi rayonunda torpaq mülkiyyətçilərinin və fermerlərin becərdikləri kənd təsərrüfatı bitkilərindən biri də şəkər çuğundurudur. Vacib texniki bitki hesab edilən şəkər çuğundurundan həm şəkər istehsalı üçün, həm də heyvandarlıqda yem kimi istifadə olunur.

Ağcabədi Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildiriblər ki, rayonda şəkər çuğunduru əkini başa çatıb. Ümumilikdə 440,9 hektar sahədə səpin aparılıb və bitiş alınıb. Hazırda becərmə işləri aparan fermerlər sahələri ketmənləyir, kultivasiya işləri aparırlar. Məhsul yığımına sentyabr ayında başlanılacaq.

Qeyd edək ki, ötən il Ağcabədi rayonunda 848 hektar sahədə şəkər çuğunduru becərilib, 27015,6 ton məhsul əldə olunub. Hər hektardan orta məhsuldarlıq 318,5 sentner təşkil edib. Yığılan məhsul İmişli şəkər zavoduna təhvil verilib.

***AZƏRTAC***

# Qüvvələr nailiyyətlər üçün səfərbər edilib

Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən uğurlu islahat strategiyası böyük sosial-iqtisadi potensiala malik Yevlax rayonunda da gözlənilən nəticələri reallaşdırmaqdadır. Dövlət başçısının müvafiq sərəncamı ilə Yevlax şəhərinə gənc icra başçısının təyin edilməsi rayonda hər kəsi narahat edən bir sıra ciddi neqativ halların aradan qaldırılması istiqamətində görülən mühüm tədbirlər kimi məmur-vətəndaş münasibətlərinin yeni müstəvidə formalaşmasına, rayonda sağlam mənəvi-psixoloji mühitin yaradılmasına əhəmiyyətli təsir göstərir, xalq-dövlət birliyinin sarsılmazlığını təmin edir.

Bu günlərdə ölkəmizin bütün bölgələrində olduğu kimi, Yevlaxda da gözəgörünməz təhlükəli düşmən olan koronavirusa qarşı mübarizə tədbirləri müvəffəqiyyətlə həyata keçirilir. Nazirlər Kabinetində fəaliyyət göstərən Operativ Qərargahın tapşırıq və tövsiyələrinin yüksək məsuliyyətlə icra edilməsi təmin olunur. Küçə və meydanların, yaşayış məhəllələrinin, bir sıra ictimai yerlərin dezinfeksiyası təkrar-təkrar aparılmışdır. Aztəminatlı ailələrə ərzaq yardımları edilmiş, onlar zəruri qayğı ilə əhatə olunmuşlar. Bu istiqamətdə həyata keçirilən tədbirlər günümüzün prioritet vəzifəsi olaraq qalmaqdadır.

Qayğıların, təxirəsalınmaz vəzifələrinin bolluğu sırasında bu gün zərbəçi ahənglə davam edən yaz-tarla işlərinin xüsusi yeri vardır. Rayonun təsərrüfatlarında çiyid səpini yüksək aqrotexniki qaydalar əsasında davam etdirilir. Taxıl zəmilərində məhsuldarlığı artırmaq üçün zəruri aqrotexniki tədbirlər görülür. Gəlirli təsərrüfat sahəsi olan baramaçılıqda yeni mövsüm başlayır. İpəkqurdularının zoobaytar qaydaları əsasında sağlam şəraitdə dirildilməsinə, kümxanaların dezinfeksiya edilib yeni mövsüm üçün hazır vəziyyətə gətirilməsinə böyük önəm verilir.

Rayonda qabaqcıl fermerlər çoxdur. Onlardan biri də Dağıstan Nəbiyevdir. Taleyini torpağa bağlayan, dövlətin qayğısından güc alıb öz halal zəhmətinə, alın tərinə güvənən Dağıstan Nəbiyev rayonun Kövər kəndində fəaliyyət göstərir. Bu hünərvər əmək adamı keçən il 27,5 hektarda pambıq əkib-becərmiş, hər hektardan 39 sentner "ağ qızıl" götürərək rayonun fermerləri arasında qabaqcıllıq nümunəsi göstərmişdir. Dağıstan bu il pamdıq əkini sahələrini daha da genişləndirmək, hər hektardan 40 sentnerdən çox məhsul götürmək, nailiyyətləri daha da artırmaq əzmindədir.

İndi rayonun təsərrüfatlarında çiyid səpininin qızğın çağıdır. Cari ilin bol məhsuluna etibarlı bünövrə qoymaq üçün səpinin hər yerdə aqrotexniki qaydalar əsasında aparılmasına xüsusi fikir verilir. Hazırda sahələrdə 13 ədəd səpin aqreqatı işləyir. 9 ədəd malaçəkən sahələri hamarlayıb çiyid səpini üçün hazır vəziyyətə gətirilir.

Kənd təsərrüfatında ənənəvi sahə olan pambıqçılığı inkişaf etdirmək üçün rayonda mövcud imkan və ehtiyat mənbələri bacarıqla səfərbər edilmişdir. Yevlax pambıqçılarının builki hədəfi 7 min ton "ağ qızıl"dır.

Bu gün uğurlarla müşayiət olunan dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri ölkədə qeyri-neft sektorunun dinamik inkişafını təmin etməkdir. Bu yöndə dövlət təbii olaraq aqrar sektorun inkişafına böyük önəm verir, kənd təsərrüfatında innovativ üsulların, mütərəqqi texnologiyaların, qabaqcıl təcrübənin səmərəli tətbiqinə nail olmaq üçün böyük həcmdə sərmayə qoyur, məhsul istehsalçılarına istehsal etdikləri məhsulların dəyərindən əlavə subsidiyalar ödəyir. Dövlətin məmnunluq doğuran bu davamlı qayğısı Yevlax kəndlisini torpağa daha möhkəm tellərlə bağlayır, onların çox məhsul istehsal etməyə marağını müqayisəedilməz dərəcədə artırır. Keçən il 37,427 ton taxıl, 6,348 ton pambıq, 7,6 ton barama, 9,002 ton ət, 37,187 ton süd, 17,890 min ədəd yumurta, nəzərdə tutulduğundan xeyli çox meyvə-tərəvəz, bostan məhsulları istehsal edən Yevlax zəhmətkeşləri cari ildə nailiyyətlərini daha da artırmaq üçün həvəslə çalışır, mövcud imkan və ehtiyat mənbələrindən səmərəli istifadə edirlər.



***Lazım QULİYEV, "Azərbaycan"***





# Mədəniyyət





● Ədəbi simalar

# "İnsan ömrü bir nəğmədir"

**Bəlkə də doğma yerlərin əsrarəngiz təbiəti olub onu sözün sehrinə salan... Xalidə Hasilova 1920-ci ilin aprelində Zaqatalada dünyaya gəlib. İlk təhsilini də elə doğma rayonunda alıb. Sonra Zaqatala Pedaqoji Texnikumunda oxuyub. Çox gənc yaşlarında əmək fəaliyyətinə başlayıb. Bir müddət Zaqatala rayonundakı Qımır kəndində müəllim işləyib. O günlərdə əlinə qələm alıb, gözünün gördüyü, ruhunun sevdiyi gözəllikləri vəsf etməyə çalışıb. Ancaq hələ ki, ədəbi yaradıcılığın incəliklərindən, dərinliklərindən xəbərsiz olub. Yazdıqları gənc bir qızın zərif duyğularının, kövrək düşüncələrinin tərcümanıydı.**



O vaxtlar bədii yaradıcılığa həvəsi ilə ali təhsil almaq marağı bir-birinə tən gəlib. Onları arzularına, ümidlərinə qoşa qanad bilib. Xəyalları isə onu çox uzaqlara aparıb. 1939-cu ildə Leninqrad Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olub. Qazandığı tələbə adının sevincini yaşamağa müharibə fürsət verməyib. 1941-ci ildə Böyük Vətən müharibəsinin başlanması Xalidə Hasilovanı Leninqraddan (indiki Sankt-Peterburq şəhəri) ayırıb. Bakıya gəlib. Təhsilini Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsində davam etdirib.

Ali təhsilini başa vurduqdan sonra Zaqatalaya qayıdıb. Pedaqoji fəaliyyətini davam etdirib. Gənc olsa da, xatirələrində həyatın sərt üzü, ciddi sınaqları, müharibə illərinin ağrı-acıları iz salmışdı. Bu hissləri, duyğuları, həyat hadisələrini əsərlərində təsvir edib. Beləcə, ötən əsrin qırxıncı illərində Xalidə Hasilova ədəbiyyatda öz yoluna başlayıb.

Müharibədən sonra Moskvada xarici dillər kursunda türk şöbəsinin dinləyicisi olub. 1948-ci ildə Bakıya dönüb.

"Kiçik hekayələr" adlı ilk kitabı 1950-ci ildə işıq üzü görüb. Ədəbiyyata o, uşaq yazıçısı kimi gəlib. Sonralar həm uşaqlar, həm də böyüklər üçün yazdığı maraqlı nəsr əsərləri Xalidə Hasilovanı oxuculara tanıdıb. Yazıçının müxtəlif illərdə "İlk məktub", "Lalənin kitabı", "İki yoldaş", "Onun taleyi", "Məhəbbət olmayanda", "Çətin yollar boyunca", "Atlas yarpaqları", "Sular durulur", "Ulduzlu papaq", "Rəna evlərini axtarır", "Dəniz çıraqları", "Yaşıl ayna", "Çılçıraq", "Kaman", "Xatirə", "Ana fəryadı" və başqa kitabları işıq üzü görüb.

O, bədii tərcümələrlə də məşğul olub. Kiçikyaşlılar üçün tərcümələri ilə də ədəbiyyatımızı zənginləşdirib. Xalidə Hasilova çox sevilən türk yazıçısı Əziz Nesinin uşaqlar üçün yazdığı hekayələri "İndiki uşaqlar möcüzədir" adlı kitabda balaca oxuculara təqdim edib. N.Nosov, N.Tixonov və başqa müəlliflərdən etdiyi tərcümələr də maraqla qarşılanıb.

Xalidə Hasilovanın yaradıcılığında jurnalistikanın özünəməxsus yeri olub. O, uzun illər mətbuat sahəsində çalışıb. Peşəkar jurnalist, bacarıqlı rəhbər kimi tanınıb. "Göyərçin" jurnalında baş redaktor, "Azərbaycan qadını" jurnalında ədəbi işçi və uzun illər baş redaktor işləyib. Hər iki mətbu orqan dövrünün ən çox oxucu auditoriyasına malik, sevilən jurnallarından olub. Redaktorluq bacarığı Xalidə Hasilovaya istedadlı qələm sahiblərinin üzə çıxarılmasında, onların oxucuların diqqətini cəlb edən məqalələrinin işıq üzü görməsinə nail olunmasında kömək edib. Özü də maraqlı, aktual mövzulu məqalələrlə mətbuatda çıxış edib.

Yazıçı, dramaturq, tərcüməçi, redaktor, ictimaiyyətçi Xalidə Hasilova istedadı, zəhmətsevərliyi, insanpərvərliyi ilə sevilib. O, Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanları, "Qırmızı Əmək Bayrağı" ordeni ilə mükafatlandırılıb. "Şərəf nişanı" ordeninə layiq görülüb.

Xalidə Hasilova Azərbaycan qadınlarının həyatından bəhs edən gözəl pyeslər yazıb. Teatr rejissorları mütəmadi onun yaradıcılığına müraciət ediblər. "Bir sahilin adamları", "Nəğməli Könül", "Hamı doğmadır mənə" və başqa pyesləri müxtəlif teatrların səhnəsində tamaşaya qoyulub.

O, yazılarında cəmiyyətin diqqətini vacib məsələlərə yönəltməyə müvəffəq olub. Bir sıra nəzəri məqalələrin müəllifi kimi də tanınıb. Həmin məqalələrin əksəriyyətində uşaq ədəbiyyatı problemlərini işıqlandırıb. "Uşaq ədəbiyyatında ədəbi tənqid haqqında", "Gözəl duyğular", "Uşaqlara yüksək keyfiyyətli əsərlər verək", "Ədəbiyyat və tərbiyə" və digər məqalələri bu qəbildəndir.

Azərbaycan qadınlarının problemlərinə yaradıcılığında daha geniş yer verən, həm jurnalist, həm də yazıçı, dramaturq kimi qələmə aldığı bu cür əsərləri ilə Xalidə Hasilova tanımadığı, üzlərini görmədiyi, adlarını eşitmədiyi neçə-neçə qadının doğmasına çevrilib. Çünki onun əsərlərində çoxu öz həyatını, öz taleyini, çəkdiyi əziyyətləri, keçirdiyi hiss və həyəcanı görüb. Bu gün də belədir. İllər ötsə də, zaman dəyişsə də, Xalidə Hasilovanın qəhrəmanları oxucuya, tamaşaçıya çox doğmadır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Paytaxtımız Bakı




# Dünyanın ən gözəl şəhərlərindən biri

## Keçmiş "Sovetski"nin yerində salınan "yaşıl ada" əsl istirahət guşəsinə çevrilib

**Paytaxt Bakının son 10-15 ildə dünyanın diqqət mərkəzinə çevrilməsi heç də təsadüfi deyil. Bu, əlbəttə, könülaçan faktlardandır. Bakıda bir-birinin ardınca beynəlxalq tədbirlərin keçirilməsinin səbəbləri arasında onun hüsnünün gözəlliyinin ildən-ilə artması da əsas amillərdəndir. Şəhərimiz Xəzərin laylasında da gözəldir, təlatümündə də, Dənizkənarı parkında istirahət edən əcnəbilərin çoxluğu ilə də.**



Ötən il iyulun 31-də Azərbaycan Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə dövlət başçısı paytaxt Bakının gündən-günə, aydan-aya inkişafının ürəkaçan olmasına toxunmuşdu. Dövlət başçısı xüsusi olaraq qeyd etmişdi ki, Bakı şəhərində bir çox layihələr icra edilir, abadlaşdırılan 50-dən artıq nümunəvi həyət artıq vətəndaşların sərəncamına verilib: "...Ümumiyyətlə, Bakı şəhərinin abadlaşması, müasirləşməsi, gözəlləşməsi istiqamətində çox böyük işlər görülüb. Bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Ancaq, eyni zamanda mövcud problemlər də var. Bu problemlərin həlli daim diqqət mərkəzində olmalıdır..."



### "Küləklər şəhəri"nin park və xiyabanları…

Ta qədimlərdən paytaxt Bakı "küləklər şəhəri" adlandırılıb. Xəzərdən əsən meh Bakı sakinlərinə, onun qonaqlarına sərinlik gətirir. "Küləklər şəhəri" bu gün həm də parkları, xiyabanları ilə yaddaşlara yazılır. Salınan hər yeni park əsl istirahət guşəsinə çevrilir, xüsusən də ilin isti, qızmar yay günlərində.

Bir vaxtlar Bakının köhnə məhəllələrindən biri kimi məşhur olan "Sovetski"nin yerində indi şəhərin ən böyük istirahət guşəsi - Milli park salınıb. Ötən ilin may ayında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva parkın açılışında iştirak etdilər. Burada bütün yaş qruplarından olanlar üçün 7 istirahət və oyun meydançası yaradılıb. Ərazidə böyüklər üçün şahmat, nərd və idman qurğuları, balacalara görə isə yelləncəklər, futbol meydançası salınıb. Parkın ərazisində ümumilikdə 9 fəvvarə tikilib. Ərazisi 20 hektar olan parkın əsas hissəsi yaşıllıqdan ibarətdir. Burada Mirzəağa Əliyev küçəsi ilə Təzəpir məscidi arasında müasir standartlara cavab verən 347 yerlik yeraltı avtomobil dayanacağı da tikilib.

Bir neçə il öncə Bakının gözəlliyinə kölgə salan "Sovetski"nin ərazisində belə bir parkın salınması, vətəndaşların istirahəti üçün şəraitin yaradılması paytaxt sakinlərinin ürəyincədir. Parkda dincələnlər də bu fikirlə razıdırlar ki, dövlət başçısı Bakının gündən-günə gözəlləşməsi üçün var gücü ilə çalışır. Yeni park zonası şəhərin mərkəzini onun dağlıq hissəsi ilə birləşdirən "Qış bağı"nın davamıdır. Burada böyüklərin istirahəti, balacaların isə əylənmələri üçün gözəl şərait yaradılıb. Məhz belə inkişaf göstəricilərinə görə deyə bilərik ki, müasir Bakı yaraşığı, gözəlliyi, Şərqlə Qərbin sintezindən doğan bənzərsiz memarlıq nümunələri ilə dünyanın əksər məşhur paytaxtları sırasındadır.

Paytaxtla ilk tanış olan turistlər isə Bakını Milan, Paris, Dubayla, bir sözlə, dünyanın tanınmış məşhur şəhərləri ilə müqayisə edirlər. Bakıya heyran olanların, onunla görüşə can atanların sayı isə ildən-ilə artmaqdadır. Bu, ölkəyə turist axını faktlarında da təsdiqlənir.

### Bakının "ağ ciyər"i

2019-cu il may ayının 22-də yeni parkın açılışı nəinki Bakının, hətta dünya memarlığı tarixində baş verən unikal hadisə idi. Füzuli meydanının ətrafında yeni yaşıllıq zolağının salınması paytaxt sakinlərinin, eləcə də onun qonaqlarının əsl istirahət yerinə çevrilib.

Parkda 2 mindən artıq 19 növdə ağac, 137 mindən çox gül və kol bitkiləri əkilib. Bir sözlə, keçmiş "Sovetski"nin yerində salınan "yaşıl ada"nın - Milli Parkın gecə-gündüzü uşaqların, gənclərin, yaşlı insanlarındır...

Azərbaycan Prezidenti paytaxtı tarixi sərvətimiz adlandıraraq onun dünəni və bugünü haqqında fikirlərini bölüşərkən bildirmişdir ki, "Sovetski"də də yaşayış çox ağır idi. Yəni bir-birinin içində olan köhnə daxma tipli tikililər həm ekoloji vəziyyətə çox mənfi təsir göstərirdi, həm də orada yaşayan insanlar və nəqliyyat üçün böyük problem yaradırdı: "Yolların eni 2-3 metr idi. Biz böyük işlər görərək oradan da vətəndaşları kompensasiya əsasında köçürdük. Bəzilərinə yeni evlər verildi, bəzilərinə pul təminatı. İndi orada fəaliyyət göstərən Mərkəzi Park dünya miqyasında ən gözəl parklardan biridir. Bütün bunlar görülən işlərin bir hissəsini təşkil edir. Bütün işləri sadalamaq üçün günlərlə vaxt lazımdır. Görülən işlər onu sübut edir ki, Bakı şəhərinin inkişafına, havasının təmizlənməsinə və nəticə etibarilə vətəndaşların rahat yaşamasına nə qədər böyük diqqət göstərilir..."

### Heydər Əliyev Mərkəzi - dünyanın ən gözəl 10 binasından biri

Dövlət başçısı Bakı şəhərini heç də təsadüfi olaraq milli sərvətimiz adlandırmayıb. Azərbaycan Prezidenti bunun səbəblərini göstərərkən qeyd etmişdir ki, birincisi, şəhərin quruluşu, şəhərdə mövcud olan gözəl tarixi memarlıq abidələri, o cümlədən İçərişəhər, şəhərimizin Xəzər dənizinin kənarında yerləşməsi onun füsunkarlığını daha da artırır: "Bu abidələr əsrlər boyu mövcud idi. Ancaq indi bəziləri unudur ki, onların əvvəlki görkəmi necə idi. Qapqara qaralmış, yarıdağılmış, baxımsız, rəngi solmuş binalar və illər boyu o binaların divarlarına hopmuş çöküntülər onların əsl simasını gizlədirdi. Biz bütün təmir işlərini çox böyük ustalıqla, binaların tarixi görünüşünə xələl gətirmədən aparmışıq. Bu, birinci amildir ki, biz Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirmişik və tarixi abidələrimizi bərpa etmişik. İkinci amil müasir binalardır. Bunlar da memarlıq abidələridir. Məsələn, Heydər Əliyev Mərkəzi ən mötəbər mətbu orqanların birində dərc edilən hesabatda dünyanın ən gözəl 10 binasının arasında yer alıb. Mənim fikrimcə, bu, dünyanın ən gözəl binasıdır..."

Doğrudan da, biz təkcə Heydər Əliyev Mərkəzinin timsalında müasir Bakımızın, Azərbaycanımızın rəmzini görürük. "Alov qüllələri", "Crystall Hall", Azərbaycan Milli Xalça Muzeyi... Bakının müasir memarlığını təcəssüm etdirir. Bütün bunlar isə tarixləri qovuşdurur - Bakıda keçmişlə müasirliyin vəhdətini təşkil edirlər...

*Məhəmməd NƏRİMANOĞLU,*
*Ağəali MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*

● Evdə qal, sənət öyrən






# "Bacarıqlı əllər ailəsi"nin yaratdığı bədii nümunələr

**Onlar çox deyillər. Bəlkə də bir ailənin uşaqları hesab etmək olar. Çoxuşaqlı bir ailənin balaları kimi də mehribandırlar bir-birilərinə. Hərəsinin özünəməxsus qabiliyyəti, həm də dərdləri var. Əslində, müəyyən formada fiziki məhdudiyyətləri olan bu uşaq-gənclər özlərinə bunu heç də dərd etmirlər ki, tay-tuşları kimi istədikləri yerə sərbəst gedib-gəlmir, qüsurlu danışır, ürəklərindən keçənləri ifadə etməkdə çətinlik çəkirlər.**

Onların bir qisminin haqqında, istedadları barədə dəfələrlə söz açılıb. Lakin bu gün belə uşaq və gənclərin yaratdıqları nümunəvi sənət incilərindən söz açmaq çox vacibdir. "Bacarıqlı Əllər Dünyası" İctimai Birliyində tanış olduğum belə istedad sahiblərindən biri Rahim Rzayevdir.





### Əsaya söykənib hərəkət etsə də...

O, 1986-cı il mart ayının 18-də anadan olub. Elə dünyaya göz açandan fiziki qüsurlu, 1-ci qrup əlildir. Əsaya dirənib hərəkət etsə də, tay-tuşlarından geri qalmağı xoşlamır. 1993-cü ildə orta məktəbə gedib. 9-cu sinfi bitirdikdən sonra bir müddət işləməyə başlayıb. 1992-ci ildən 2019-cu ilədək bir neçə dəfə sağ ayağı dizdən aşağı ağır əməliyyata məruz qalıb. Sonrakı taleyini belə dilə gətirdi Rahim: "2015-ci ilin avqust ayında 1 saylı Sağlamlıq İmkanı Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzində kompüter kursuna qoşuldum. Beş aya bu kursu bitirdim. 2016-cı ilin yanvarından mart ayınadək "Bacarıqlı Əllər Dünyası" İctimai Birliyi nəzdində Türkiyə İşbirliyi Koordinasiya Agentliyinin mozaika kursunda oxudum. Burada həmin peşə üzrə kamilləşmək üçün əlavə üç ay da kurs keçdim. "Bacarıqlı Əllər Dünyası" İB-nin təşkil etdiyi kurslarda iştirak edərək, tələbəlikdən müəllimliyə kimi yol keçdim. 2017-ci ildə bu birliyin təşkilatçılığı və "Azərsun" Holdinqin dəstəyi ilə "Mənim dünyam" adlı şəxsi sərgim keçirildi. 2019-cu ildə yenə də "Bacarıqlı Əllər Dünyası" və "Bank Respublika"nın dəstəyi ilə "Mən də bacararam" adlı layihədə müəllim kimi iştirak etdim. Bundan sonra bir çox layihələrə təlimçi və sənətkar kimi qoşuldum. 2018-ci ildə keçirilən Ümumrespublika Əlillər sərgisində III yeri tutaraq diplomla təltif olundum. Ötən ilin sentyabrından BP-nin əlillər üçün təşkil etdiyi "British Council" kurslarında iştirak edirəm. Bilmirəm sabah nələr olacaq, amma həyata pozitiv baxışlarım məni irəliyə aparır. Uğurlarımı gördükcə həyata daha da bağlanır və nəsə yaratmaq istəyirəm..."

### Mustafa Abdullayev də "bacarıqlı əllər ailəsi"nin üzvlərindən biridir

1995-ci ilin may ayı doğulduğu ailəni sevindirsə də, bu sevincin ömrü uzun olmayıb. Bakı şəhərində anadan olduğu üçün Mustafa 268 nömrəli xüsusi orta məktəbə gedib. Həkimlərin diaqnozu belə olub: inkişafın ləngiməsi. O, Ramanada yerləşən 1 saylı Sağlamlıq İmkanı Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzində rəssamlıq kurslarına gedib.

"Bacarıqlı Əllər Dünyası"nda da az şey öyrənməyib. Birliyin təşkil etdiyi "Şəhidlər ölmür "adlı layihədə daha da mükəmməl işlər öyrənməyə başlayıb və bir çox layihələrdə yaxından iştirak edib.

Mustafa problemli olsa da, çox zəhmətkeş gəncdir. Gözəl rəsm çəkmək qabiliyyəti ilə yanaşı, muncuqlarla da işləməyi bacarır. Bir çox sərgilərdə əl işləri nümayiş etdirilib. Şəkər xəstəliyindən illərdir ki, əziyyət çəkən anasının tək övladıdır. Ona görə də çəkdiyi rəsmlərini satmaqla anasının gözünü əməliyyat etdirib...

Fiziki məhdudiyyətli uşaqların arasında elə istedadlılar var ki, onlar artıq püxtələşmiş sənətkar kimi tanınırlar. "Azərbaycanı dünyaya tanıdaq" layihəsi ilə respublikanın müxtəlif bölgələrinə (İsmayıllı, Şəki, Şamaxı, Quba və s.) səfərlər edib, orada sərgilər keçiriblər. Belə layihələrin təşkili bacarıqlı əllər sahiblərinin üzə çıxarılmasında, xüsusən onların ictimaiyyətə, cəmiyyətə inteqrasiyasında mühüm vasitələrdən biri hesab edilir.

### "Evdə qal, sənət öyrən"

Qısa zaman ərzində 40-dək belə uşağın toplanmasına və nümunəvi əl işləri yaratmalarına səbəb olan Zəhra Xələfova, Rahim Rzayev, Sevinc Məsimova, Adil Şıxəliyev yeniyetmələrin sevimli müəllimləridir.

"Bacarıqlı Əllər Dünyası" İctimai Birliyinin sədri Azadə Məmmədova deyir ki,

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının "Real TV" ilə birlikdə koronavirusun yayılmasının qarşısının alınmasına ictimai dəstəyi təmin etmək məqsədilə keçirdiyi "Evdə qal, cəmiyyəti qoru" adlı kampaniyasına qoşularaq "Evdə qal, sənət öyrən" devizi ilə evdə qalan insanlarla virtual təlimlərə başlamışıq: "Zoom" proqramı vasitəsilə maraqlanan şəxslərə əl işləri öyrədəcəyik. Məqsədimiz budur ki, insanlar asudə vaxtlarından səmərəli istifadə etsinlər. Bu çətin günlərdən, karantin dövründən sağ-salamat çıxacağıq. Axı biz birlikdə güclüyük. Müraciətimiz isə belədir: dəyərli dostlar, bizə qoşulun, həftədə 3 gün sizə əl işləri öyrədək. Təki siz evdə qalın. Biz sizi darıxmağa qoymarıq!"

*M.NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

● Xəbər

# Heydər Əliyev Mərkəzi - fransızların ən çox sevdiyi məkan

**COVID-19 epidemiyası dünya ölkələrini silkələyərək hər kəsi təcridolma rejiminə riayət etməyə məcbur etdi. İnsanlar ağıllarına da gəlməyən bu yeni rejimlə hesablaşmalı oldular.**



Təcridolma rejimi ilə hesablaşmalı olan fransızlar sosial şəbəkələrdə səyahət etdikləri ölkələrdən şəkillər paylaşaraq xatirələrini bölüşüblər.

Fransa Milli Assambleyasının sabiq deputatı, İl-dö Frans regionunun Udan (Houdan) kommunasının meri Jan-Mari Tetart bu müddətdə müxtəlif ölkələrə səyahətlərindən ən yaddaqalan xatirələrini paylaşıb.

Udan merinin ən xoş xatirələri ilə bağlı bölüşdüyü şəkillər arasında intellekt memarlıq abidələrindən olan Heydər Əliyev Mərkəzinin, eləcə də Bakı şəhərinin görməli yerləri də var.

Tetart sosial şəbəkələrdə Bakıya səfəri ilə bağlı fikirlərini ifadə edib və onun paytaxtımızdan bölüşdüyü şəkillər fransızların marağına səbəb olub. Bəziləri Bakıda olduqlarını bildirərək onun əsrarəngiz müasir şəhər olduğunu qeyd edir, digərləri paytaxtımızı tanımadıqlarını, ancaq bu şəkillər vasitəsilə onun necə gözəl olduğunu vurğulayıblar.

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

### Sumqayıt şəhərində Kiçik və Orta Biznesin İnkişafı Mərkəzinin fəaliyyətə başlaması üçün təşkilati işlərin həyata keçirilməsi, mərkəzdə KOB-lara təlim və seminarların keçirilməsi, habelə məsləhət və dəstək xidmətlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarının diqqətinə çatdırılır ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumat əldə edə bilərlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı: 500 AZN
İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

**Təşkilatın adı: Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN: 1603326271**
**Bank rekvizitləri: “Kapital Bank” ASC-nin Mərkəzi filialı**
**H/h: AZ33AIIB38060019440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T. AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **02.06.2020-ci il saat 16:00-dək** və tender təklifi ilə bağlı bank təminatı sənədlərini **10.06.2020-ci il saat 16:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **11.06.2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

İddiaçılar E-şərtlər toplusunu **01.05.2020-ci il saat 10:00-dan** (elan tarixi günü) sonra əldə edə bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

“AtaSığorta” ASC bildirir ki, 08.04.2020-ci il tarixdən etibarən şirkətin baş ofisi **Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti, 124** ünvanına köçürülmüşdür.

**Əlaqə telefonu: 012 936**

***Rəhbərlik***

# Bakı Ali Neft Məktəbinin əcnəbi tələbələri “Sarı gəlin” ifası ilə qalib oldular

Bakı Ali Neft Məktəbinin (BANM) “Neft-qaz mühəndisliyi” ixtisasının II kurs tələbələri İnyama Somtoçukvu Çidinma, Ezinne Ezuma Cessika “Tələbə Baharı” XIII Ümumrespublika tələbə yaradıcılıq festivalında “Xalq mahnısı” nominasiyası üzrə üçüncü yerə layiq görülüblər. BANM-in Mətbuat xidmətindən verilən məlumata görə, Gənclər və İdman Nazirliyinin Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı ilə birgə keçirdiyi festivalda tələbələr əfsanəvi xalq mahnımız “Sarı gəlin”i səsləndiriblər.

Əcnəbi tələbələrin Azərbaycan xalq mahnısını məharətlə ifa etməsi münsiflər heyəti tərəfindən bəyənilib.

Əsas məqsədi tələbə yaradıcılıq kollektivlərini inkişaf etdirmək, ali təhsil müəssisələrində fəaliyyət göstərən dərnəklər arasında gənclərin mübadiləsini təşkil etmək, tələbələrin estetik tərbiyə sistemini təkmilləşdirmək və istedadlı gəncləri üzə çıxarmaq olan festivalın seçim mərhələsi bu il onlayn qaydada həyata keçirilib.

Festivalda qazandıqları uğura görə qaliblərin diplom və mükafatla təltif edilməsi nəzərdə tutulub.

Qeyd edək ki, festival musiqi və rəqs nominasiyaları üzrə təşkil edilib.

## “Azərsu” ASC daxili vəsaiti hesabına 15 tonluq körpülü (vətərli) kranın əsaslı təmir işinin satın alınması məqsədilə

### *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs: Satınalmalar üzrə mühəndis Ağaəli Mirzəyev, agali.mirzeyev@azersu.az +99412 431-47-67 (2246) ) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 04 may 2020-ci il saat 11:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri “Azərsu” ASC-nin Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanında 05 may 2020-ci il saat 11:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

### Azərbaycanda KOB subyektləri arasında müxtəlif istiqamətlər üzrə keçirilməsi nəzərdə tutulan sorğu xidmətinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı: 300 AZN
İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

**Təşkilatın adı: Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN: 1603326271**
**Bank rekvizitləri:“Kapital Bank” ASC-nin Mərkəzi filialı**
**H/h: AZ33AIIB38060019440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T. AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **03.06.2020-ci il saat 16:00-a qədər** və tender təklifi ilə bank təminatı sənədlərini **11.06.2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **12.06.2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

İddiaçılar E-şərtlər toplusunu **01.05.2020-ci il saat 16:00-dan** (elan tarixi günü) sonra əldə edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Təhsil Nazirliyinin tabeliyində olan təhsil müəssisələrində mövcud qanunvericiliyə uyğun dövlət təminatındakı təhsilalanların 2020-ci ilin may-dekabr ayları ərzində yeməklə təchizatı ilə bağlı xidmətlərin dövlət vəsaiti hesabına satın alınması məqsədi ilə 15 aprel 2020-ci il tarixdə keçirilmiş açıq tender prosedurunun nəticəsinə görə “TAİSİKF” MMC tenderin qalibi olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Çin koronavirusu yaymaq ittihamını qətiyyətlə rədd edir



Çin yeni tip koronavirusun yayılmasında Pekini ittiham etmək cəhdlərinə qarşı çıxır. Bu bəyanatla Xarici İşlər nazirinin müavini Yue Yuyçen çıxış etmişdir.

Yuyçen ABŞ-ın NBC telekanalına müsahibəsində bildirmişdir ki, “biz Çini heç bir dəlil-sübut olmadan məhkumlar skamyasında oturtmağın, sonra isə bu dəlilləri “beynəlxalq təhqiqat”ın köməyi ilə axtarıb taxmağın əleyhinəyik”. O əlavə etmişdir ki, Pekin belə beynəlxalq təhqiqatı qətiyyətlə rədd edir. Xarici İşlər nazirinin müavini, həmçinin pandemiya nəticəsində ortaya çıxmış iqtisadi itkilərə görə Çindən kompensasiya tələb etməyi cəfəngiyat kimi qiymətləndirmişdir: “Çini təqib etmək və kompensasiya tələb etmək sadəcə olaraq cəfəng siyasi məzhəkədir”. O qeyd etmişdir ki, Çinin özü infeksiyanın qurbanı olmuş və xeyli itki vermişdir.

Bir müddət əvvəl ABŞ Prezidenti Donald Tramp bildirmişdi ki, Vaşinqton infeksiyanın yayılmasında Çinin günahını araşdırır. Başqa ölkələrin bir sıra siyasətçiləri də yeni koronavirusun mənbələrini aydınlaşdırmaq üçün beynəlxalq təhqiqat aparmağı tələb etmişlər.

## Rusiyada koronavirusdan 74 tibb işçisi vəfat edib



Rusiyada koronavirusa yoluxması təsdiqlənmiş 74 tibb işçisi vəfat etmişdir. Bu barədə Səhiyyə Nazirliyinin baş ştatdankənar epidemioloqu Nikolay Briko məlumat vermişdir.

Brikonun dediyinə görə, ölkədə infeksiyaya yoluxmuş tibb işçilərinin sayı daim artır. Bir çox regionlarda səhiyyə müəssisələrində çoxsaylı infeksiya ocaqları qeydə alınmışdır. Bəzi xəstəxanalarda koronavirusa yoluxmuş xəstələrlə işləyən əməkdaşların kütləvi infeksiyası baş vermişdir. Məsələn, Sankt-Peterburqdakı Mariinski xəstəxanasında 50 tibb işçisində virus aşkarlanmışdır. Belə müəssisələr karantinə bağlanır. Tibb işçiləri qoruyucu vasitələrin çatışmazlığından şikayətlənirlər.

## Finlandiyada məktəblər və uşaq bağçaları açılacaq



Finlandiya hakimiyyət orqanları koronavirus pandemiyası ilə mübarizə aparmaq üçün tətbiq olunmuş məhdudiyyətləri ləğv etməyə başlamışdır. Bu barədə yerli KİV xəbər verir.

Cari ayın 14-də bütün siniflərin şagirdləri parta arxasına, uşaqlar isə bağçalara qayıdacaqlar. Baş Nazir Sanna Marin bildirmişdir ki, məktəblərdə distant təhsil dayanmalıdır.

Epidemioloqların fikrincə, təhsil müəssisələrində məhdudiyyətlərin uzadılmasına daha ehtiyac yoxdur, lakin gigiyena qaydalarına və şagirdlər arasında sosial məsafəyə riayət etmək lazımdır.

## Qazaxıstanda neft yatağında koronavirus aşkarlandı



Qazaxıstanın Atırau vilayətində ölkənin ən böyük neft yatağının - “Tengiz”in 71 işçisində koronavirus aşkar edilmişdir. Bu barədə tengrinews.kz saytı xəbər verir.

Regionda fövqəladə vəziyyət rejiminin təmin edilməsi üzrə Operativ Qərargahın verdiyi məlumata görə, 12 işçi sağalmışdır. Xəstələrin 1,5 min nəfərdən çox adamla təmasda olduğu müəyyənləşdirilmişdir. Ötən ayın ortalarında əməkdaşların yataqdan çıxarılması başlamışdır. Ümumilikdə 17 min nəfərin təxliyə olunması planlaşdırılmışdır. İndiyədək 10 min əməkdaş neft yatağından çıxarılmışdır.

Bundan əvvəl Qazaxıstanın baş sanitar həkimi Ayjan Esmaqambetova məlumat vermişdi ki, ölkədə maska rejimi cari ayın axırınadək uzadılacaq. O, vətəndaşları koronavirusla yaşamağı öyrənməyə çağırmışdı. Səhiyyə Nazirliyi izah etmişdi ki, qapalı yerlərdə, o cümlədən apteklərdə, mağazalarda və ictimai nəqliyyatda maska taxmaq məcburidir.

## Norveç neft hasilatını əhəmiyyətli dərəcədə azaltmaq niyyətindədir



Qərbi Avropanın ən böyük neft istehsalçısı olan Norveç istehsal gücünü cari ilin iyunundan dekabrına qədər əhəmiyyətli dərəcədə azaltmaq niyyətindədir. Neft və Energetika naziri Tina Bru bildirmişdir ki, neft hasilatının ümumi həcmi 2020-ci ilin dekabrında əvvəllər planlaşdırıldığından 300 min barel/gün az olacaq.

Brunun dediyinə görə, iyunda neft hasilatı 250 min barel/gün, ilin ikinci yarısında isə daha 134 min barel/gün azalacaq. Bundan başqa, bir çox yataqların istismara verilməsi 2021-ci ilədək təxirə salınacaqdır.

OPEC + ölkələri aprelin 12-də neft hasilatını azaltmaq üçün tarixdə ən böyük müqavilənin şərtlərini razılaşdırmışdır. İstehsalın ümumi ixtisarı 9,7 milyon barel/gün təşkil edəcək.

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Xətai Rayon Təşkilatının sədri Hüseynbala Mirələmov Əməkdar elm xadimi, professor

**ABUZƏR XƏLƏFOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Əməkdar elm xadimi, professor

**ABUZƏR XƏLƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə Nazirliyi Tibb baş idarəsinin kollektivi AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun direktoru, professor

**ƏLİŞİR MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Bakı Dövlət Universitetinin professoru, Əməkdar elm xadimi

**ABUZƏR XƏLƏFOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun əməkdaşları baş həkim Nizami Nəbiyevə atası

**NƏBİ NƏBİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7580
Sifariş 1176
Qiyməti 40 qəpik